QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 138 (6338) 6 avqust 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Azərbaycan və Fransa Prezidentləri arasında telefon danışığı olub



Bax 2

### Ceyhun Bayramov və Mövlud Çavuşoğlu meşə yanğınları ilə bağlı vəziyyəti müzakirə ediblər



Bax 3

### Bakıda yol mədəniyyəti



Bax 9

### Məhərrəmlikdə ən vacib nələrə diqqət yetirilməli? - DİN XADİMİ AÇIQLADI



"Məhərrəm Hicri-Qəməri təqvimin birinci ayıdır. Söz hərfən "haram edilmiş" mənasını bildirir...

Bax 10

### UNEC-də YAP Gənclər Birliyinin "Davamlı İnkişaf Məktəbi" layihəsinin iştirakçıları ilə görüş keçirilib



Bax 2

### Türkiyənin üz-üzə qaldığı fəlakət və Azərbaycan qəhrəmanlarının şücaəti barədə FOTOREPORTAJ+ VİDEO

Bax 4



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğınxilasetmə qüvvələrinin qardaş ölkədəki...

### Araik Harutyunyan Moskvaya qaçıb - Qazağın 7 kəndi qaytarılır




### "Ermənistan İrandan gözlədiyi nəticəni almayacaq"



Bax 11

"Ermənistan Baş naziri Nikol Paşinyanın İrana səfəri ümumiyyətlə İran-Ermənistan əlaqələrinin əsasını təşkil edir. Bildiyimiz kimi bu günə qədər bir qayda olaraq Azərbaycan və Ermənistan arasında əlaqələr...

### Ermənilər Qarabağda yeni su elektrik stansiyası tikir - Azərbaycan hansı addımı atacaq?




### Feminist araqatanların qrant-şouları necə ifşa olundu?




Bax 14

### Ermənistan quruyan Aral dənizinə bənzədilir



Bax 12

### "Paşinyan "dırmıqla rəqs"ini davam etdirsə, yeni qarşıdurmaya səbəb olacaq"



Bax 15

### Rihanna rəsmən mlyarder oldu!



Bax 16

# Azərbaycan və Fransa Prezidentləri arasında telefon danışığı olub

***Avqustun 5-də Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.***



SiA rəsmi mənbələrə istinadən xəbər verir ki, söhbət zamanı dövlət başçıları 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonrakı dövrdə regional məsələlər və Bəyanatın müddəalarının həyata keçirilməsi, Ermənistan-Azərbaycan dövlət sərhədindəki vəziyyət və postmünaqişə dövründə regionda sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparıblar.

Dövlət başçıları söhbət əsnasında Azərbaycan-Fransa ikitərəfli əlaqələrinin müxtəlif sahələrinə aid məsələləri də müzakirə ediblər.

# Azərbaycan brendi “ASAN Xidmət" dünya üçün nümunədir

*Prezident İlham Əliyev: "ASAN xidmət" ölkəmizin intellektual məhsuludur*

Məlumdur ki, ölkəmizdə əhalinin həyat səviyyəsinin yüksəldilməsini, vətəndaşların sosial təminatlarının əhatə dairəsinin genişləndirilməsini hədəfləyən kompleks tədbirlər həyata keçirilir. Respublikamızda inklüzivliyin artırılmasına, sosial xidmətlərə əlçatanlığın təmin olunmasına geniş imkanlar açan ”ASAN xidmət” mərkəzlərinin yaradılması buna əyani nümunədir. Ölkəmizdə aparılan islahatlar çərçivəsində reallaşdırılan tədbirlərin böyük bir qismi idarəetmənin optimallaşdırılmasına, vətəndaşlara göstərilən xidmətlərin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulmasına, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsinə xidmət edir. Bu baxımdan, Prezident İlham Əliyevin təşəbbüsü ilə ”ASAN xidmət” mərkəzlərinin yaradılması mühüm əhəmiyyət kəsb edir.







İnnovasiya sahəsində dünyada tanındılan Azərbaycan brendi

Elə bu günlərdə Prezidenti İlham Əliyevin iştirakı ilə 6 saylı Bakı ”ASAN xidmət” mərkəzinin açılışı da dövlət başçımızın rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissələrindən biri də əhalinin sosial məsələlərinin həlli, onların dövlət orqanlarının xidmətlərinə əlçatanlığının təmin edilməsi və vətəndaş məmnunluğunun daha da artırılmasıdır. Dövlətimizin başçısının təşəbbüsü ilə 2012-ci ildə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində ”ASAN xidmət” mərkəzlərinin yaradılması bürokratik əngəllərin və mümkün korrupsiya hallarının aradan qaldırılmasında inqilabi dəyişiklik etdi və innovasiya sahəsində Azərbaycan brendi kimi dünyada tanındı. Məlumat verildi ki, 6 saylı Mərkəzdə müxtəlif dövlət orqanları, özəl şirkətlər və kommunal xidmət qurumları qeydiyyat yerindən asılı olmayaraq bütün vətəndaşlara ümumilikdə 320-dən çox xidmət göstərəcək. Dövlət orqanlarının bu mərkəzdə fəaliyyət göstərəcək işçiləri də daxil olmaqla ümumilikdə 230 əməkdaş və 85 könüllü çalışacaq. Onların mütləq əksəriyyəti şəhid ailələrinin üzvləri və qazilərdən, Vətən müharibəsinin iştirakçılarından ibarətdir. Bildirildi ki, hazırda fəaliyyət göstərən 20 ”ASAN xidmət” mərkəzinin 5-i Bakıda, digərləri isə bölgələrdədir. Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk ”ASAN xidmət” mərkəzləri inşa olunur. Regionlarda 10 səyyar ”ASAN xidmət” avtobusu və səyyar ”ASAN qatar” vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi də davam etdirilir. Bu günədək ”ASAN xidmət”ə 7 milyon 465 mindən çox vətəndaşın 45 milyondan artıq müraciəti daxil olub.

Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir. ”ASAN Xidmət” mərkəzlərində innovasiyaların tətbiqinə geniş meydan verilir. Bu mərkəzlərdə müasir texnologiyaların tətbiqi bir tərəfdən göstərilən xidmətlərə əlçatanlığı artırır, digər tərəfdən isə vətəndaş-məmur təmasları minimuma enir, şəffaflıq yüksək səviyyədə təmin edilir. Bütün bunlar isə son nəticədə ölkədə vətəndaş məmnunluğunun yüksək səviyyədə təmin olunmasını şərtləndirir. Dövlət başçısının qeyd etdiyi kimi, bu gün ”ASAN xidmət” ölkəmizin intellektual məhsuludur. ”ASAN xidmət”in fəaliyyəti Azərbaycanda innovasiyaların inkişafına da çox böyük təkan verir. Qürurverici hal ondan ibarətdir ki, dünya ölkələri Azərbaycanın təcrübəsini öyrənir və ”ASAN Xidmət” modelini özlərində tətbiq edirlər. Bir sözlə, Azərbaycan brendi olan ”ASAN Xidmət” dünya üçün nümunə olan bir modeldir.

”ASAN xidmət” ictimai xidmət sahəsində çox ciddi dönüş yaradıb, həmçinin yeni ideyalar, innovasiyalar tətbiq etməklə vətəndaşlarımıza ən keyfiyyətli xidmətlər təklif edir. Azərbaycanı tanıdan və təbliğ edən milli brendimiz olan ”ASAN” bu gün Azərbaycanda yeni, müasir, mədəni, xalqımızın mentalitetinə xas olan dəyərləri tətbiq edir, onları təbliğ edir.

Bir sözlə, Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə reallığa çevrilən və vətəndaş məmnunluğuna xidmət edən belə mərkəzlərin sayının artması həm dövlətin iqtisadi qüdrətinin yüksəldiyini, həm də verilən vədlərin vaxtında yerinə yetirildiyini təsdiqləyən reallıqdır.

***RƏFİQƏ HÜSEYNOVA***

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də ”Şabran rayonunun Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (6 km)-Padar avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalayıb.

ŞƏRH

# "Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya"nın müddəalarının yerinə yetirilməsi üzrə Komissiyanın yeni tərkibdə ilk iclası keçirilib

***Avqustun 5-də Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədovun sədrliyi ilə "Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya"nın müddəalarının yerinə yetirilməsi üzrə Komissiyanın yeni tərkibdə ilk iclası keçirilib.***



Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda "Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya"nın müddəalarının yerinə yetirilməsi üzrə Komissiyanın yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 iyul tarixli 2796 nömrəli Sərəncamı ilə yeni tərkibdə təsdiq edilmiş Komissiyanın fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, Azərbaycan Respublikasının müvafiq Konvensiyanın müddəalarının yerinə yetirilməsinə dair gördüyü işlər və qarşıda duran vəzifələr müzakirə edilib.

Komissiyanın iclasında prioritet istiqamətlər üzrə təkliflərin hazırlanması ilə əlaqədar tapşırıqlar verilib, həmçinin Ermənistan tərəfindən işğal edilmiş və azad olunmuş ərazilərdə dağıdılmış mədəni abidələrin vəziyyəti ilə bağlı beynəlxalq təşkilatların məlumatlandırılması istiqamətində aparılan işlərin zəruriliyi Komissiya üzvlərinin diqqətinə çatdırılıb.

İclasda irəli sürülmüş təkliflərə dair Komissiya üzvləri tərəfindən müzakirələr aparılıb. İclasın yekunu olaraq Komissiyanın fəaliyyətinin təmin edilməsi məqsədilə aidiyyəti qurumların nümayəndələrindən və sahə üzrə ekspertlərdən ibarət İşçi Qrupun yaradılması, həmçinin müvafiq Tədbirlər Planının hazırlanması istiqamətində tədbirlər görülməsi qərara alınıb.

# UNEC-də YAP Gənclər Birliyinin "Davamlı İnkişaf Məktəbi" layihəsinin iştirakçıları ilə görüş keçirilib









Avqustun 5-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyinin təşkil etdiyi "Davamlı İnkişaf Məktəbi" layihəsinin iştirakçıları ilə görüş keçirilib.

Əvvəlcə UNEC Karyera Mərkəzinin direktoru Ramil Cabbarov gəncləri ali təhsil ocağında yaradılan şəraitlə yaxından tanış edib. Layihə iştirakçıları universitetin həyətində yaradılan "UNEC şəhidləri" yeni memorial kompleksini ziyarət ediblər. UNEC Ekstern Mərkəzi, oxu zalı, kitabxana və muzeylə tanışlıqdan sonra görüş akt zalında davam etdirilib.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov gənclər qarşısında "Təhsilin inkişafının cəmiyyətdə olan problemlərin həllində rolu" mövzusunda çıxış edib. Rektor əvvəlcə universitetdəki yeniliklərdən, təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlərdən, qarşıya qoyulan planlardan, həyata keçirilən tədbirlərdən bəhs edib.

"Azərbaycanda təhsilə verilən önəm olduqca yüksəkdir" deyən Ə.Muradov vurğulayıb ki, ölkəmizdə cəmiyyətin bütün təbəqələri təhsilə xüsusi dəyər verirlər: "Təhsil vasitəsi ilə həlli mümkün olmayan problem yoxdur. Empirik tədqiqatların nəticələrinə görə, bütün dünyada ortalama göstərici ondan ibarətdir ki, cəmiyyətin minimum 25-30 faizi təhsillə maraqlanır. Bu, o deməkdir ki, onların maraqları ilə üst-üstə düşməyən tədbirlər həyata keçirildiyi zaman təhsil cəmiyyətdə təhlükə mənbəyinə çevrilə bilər. Maraqlar nəzərə alınan zaman isə təhsil cəmiyyətin ən azı 30 faizinin rəğbətini qazanmaqla dəstək əldə etmiş olar. Bu, maraqların da təmin edilməsi olduqca mürəkkəbdir. Təhsil alanla təhsil verən arasında maraqların uzlaşdırılması çox çətindir. Təhsil alan bir qayda olaraq təhsilin nəticələrini əks etdirən qiymətlərin yüksək olmasını və bunu asan yolla əldə etməsi üçün hər bir varianta əl atır. Təhsil verənlər isə buna bir qədər fərqli yanaşırlar. Cəmiyyətdə bir çox hallarda təhsildə baş verənlərə, övladına bunun təsiri baxımından qiymətləndirərək baxırlar. Bu maraqların təmin edilməsi şübhəsiz ki, vacibdir. Amma bu, çox ciddi səylər tələb edir".

"Bir qayda olaraq ali təhsil mərkəzləri yerləşən məkanlar ölkələrin innovativ inkişaf mərkəzləridir" söyləyən UNEC rektoru ABŞ-da Stanford, Böyük Britaniyanın Kembric, Çinin Şanxay universitetlərini də misal göstərərək qeyd edib ki, bu ali təhsil müəssisələri innovasiyanın mərkəzi olmaqla yanaşı, həmin ölkələrin, regionların innovativ inkişafına da ciddi təkan verirlər.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov çıxış edərək YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradova dəyərli fikirləri üçün öz təşəkkürünü bildirib. Natiq iştirakçılar arasında həm YAP üzvləri, həm də bitərəf gənclərin olduğunu vurğulayaraq bu təşəbbüsün cəmiyyətdə ictimai-siyasi düşüncəsindən asılı olmayaraq bütün gənclər arasında sağlam və dayanıqlı kommunikasiyanın formalaşamasına töhfə verəcəyini deyib.

Daha sonra diskussiya şəklində keçirilən tədbirdə gəncləri maraqlandıran suallar cavablandırılıb.

# Ceyhun Bayramov və Mövlud Çavuşoğlu meşə yanğınları ilə bağlı vəziyyəti müzakirə ediblər




Avqustun 5-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovla Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, nazirlər Türkiyədəki meşə yanğınları ilə bağlı son vəziyyət, yanğınların söndürülməsi və geniş ərazilərə yayılmasının qarşısının alınması əməliyyatları, azərbaycanlı yanğınsöndürənlərin bu əməliyyatlarda iştirakı məsələləri ilə bağlı fikir mübadiləsi aparıblar.

Mövlud Çavuşoğlu Azərbaycan tərəfinin meşə yanğınlarının söndürülməsində Türkiyəyə yardımına görə minnətdarlıq ifadə edib.

Ceyhun Bayramov Azərbaycanın hər zaman qardaş Türkiyənin yanında olduğunu və bu çətin günlərdə Türkiyəyə hər cür yardımı göstərməyə hazır olduğumuzu bir daha vurğulayıb.

# Azərbaycan Avropa İttifaqı üçün əhəmiyyətli tərəfdaşdır

44 günlük Vətən müharibəsində Müzəffər ordumuz 30 il erməni işğal altında olmuş torpaqlarımızı azad edib, ərazi bütövlüyünü bərpa etdikdən sonra Azərbaycan dünyanın iqtisadi, siyasi, eləcə də hərbi sahədə ən güclü dövlətlərdən olduğunu göstərdi. Regionda yaranan yeni reallıqlara uyğun olaraq bir sıra məsələlərin həllində və layihələrin reallaşmasında Azərbaycan söz sahibi olaraq diqtə edən tərəfə çevrilib. Ümumiyyətlə, ölkəmiz bir sıra ölkələr və nüfuzlu beynəlxalq təşkilatlarla geniş strateji əlaqələrə malikdir.



Aydın siyasi iradənin, çağdaş hüquqi dövlət quruculuğu işində mühüm uğurlar əldə edilməsinin nəticəsi olaraq Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, Avropa Şurasının, İslam Konfransı Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin, GUAM-ın üzvüdür. Eyni zamanda Azərbaycan NATO və Avropa Birliyi kimi qurumlarla əməkdaşlıq edir. Azərbaycan dövlətinin ciddi, əsaslı siyasəti, ölkə daxili iqtisadi inkişafı ilə bu nufuzlu təşkilatlarında ən etibarlı, yüksək inam bəslənilən dövlət imici qazanıb.

Bu da dünyanın demokratik, aparıcı dövlətləri ilə yeni əməkdaşlıq münasibətləri yaradıb. 2006-cı il mayın 9-da BMT Baş Assambleyasında keçirilən seçkilər nəticəsində Azərbaycanın bu quruma üzv seçilməsi ölkəmizin əldə etdiyi ən mühüm nailiyyətlərindən biridir. Azərbaycan-BMT əlaqələrinin inkişafı, möhkəmlənməsi və ölkəmizin bu təşkilatda böyük nüfuz qazanmasını göstərən ən əhəmiyyətli hadisə isə 2011-ci il oktyabrın 24-də Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi və bu quruma rəhbərlik etməsi olmuşdur. Beynəlxalq təşkilatlarla, dünya dövlətləri ilə səmərəli əməkdaşlıq əlaqələrinin qurulması və əlaqələrin dövlətlərin maraqlarına uyğun inkişaf etdirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasətinin ana xəttini təşkil edir. Bu baxımdan Azərbaycan beynəlxalq təşkilatlarda daim aktiv fəaliyyət göstərməsi ilə fərqlənmiş və milli maraqlarımızın təmin olunmasına yönəlmiş siyasət həyata keçirmişdir. Ölkəmizin beynəlxalq təşkilatlarda nüfuzunun yüksək olmasının nəticəsidir ki, Azərbaycan 2019-cu ildən etibarən Qoşulmama Hərəkatına sədrlik edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Qoşulmama Hərəkatı dünyanın inkişafına mühüm töhvələr verən qlobal əhəmiyyətli tədbirlər keçirib. Koronovirus pandemiyasının qarşısının alınması və dövlətlərin bu istiqamətdə əməkdaşlığının gücləndirilməsi üçün Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və sədrliyi ilə Qoşulmama Hərəkatının vidiokonfrans formatında toplantısı keçirilib. Ölkəmizin Prezident İlham Əliyevin rəhbərliyi ilə Qoşulmama Hərəkatının fəaliyyətinə və işinə mühüm töfhələr verməsinin nəticəsi olaraq üzv ölkələr 2022-ci ilə qədər dövlətimizin bu quruma rəhbərlik etməsini təklif etmiş və bu istiqamətdə qərar verilib. Təbii ki, səbəbsiz deyil ki, Azərbaycan ordusunun sentyabrın 27-dən erməni terrorçularına qarşı Qarabağda uğurlu hərbi əməliyyatlar apardığı zaman İslam Konfransı Təşkilatının, Qoşulmama Hərəkatının, Türk Şurasının, BMT Təhlükəzsilik Şurasının daimi üzvlərinin irəli sürdükləri separatçı layihəyə qeyri-daimi üzvlərin sərt münasibət bildirmələri və ayrı-ayrı ölkələrin Azərbaycanın haqq işini, ədalətli mövqeyini müdafiə etmələri ölkəmizin dünyada böyük nüfuza malik olması ilə bağlıdır.

**Türkiyə-Azərbaycan qardaşlığı**

Dövlətimizin uğurlu xarici diplomatiyasının prioritetlərindən biri də türk dünyasının qarşılıqlı əlaqələrinin möhkəmlənməsidir. Azərbaycan Prezidenti İlham Əliyev bütün sahələrdə olduğu kimi, türk dünyası ilə əlaqələrin inkişafına xüsusi önəm verir. Türkiyə-Azərbaycan qardaşlıq əlaqələri, strateji müttəfiqliqi, beynəlxalq təşkilatlarda, dispora fəaliyyətlərində eyni maraqlardan çıxış edilmələri dünya xalqları və dövlətləri üçün həsəd aparılan, paxıllıq hissi yaradan məsələyə çevrilib. Sentyabrın 27-dən Qarabağda aparılan uğurlu təmizləmə əməliyyatlarında Türkiyə hakimiyyəti və xalqı Azərbaycan dövlətinə, ordusuna ən yüksək səviyyədə mənəvi, siyasi, diplomatik dəstək göstərdi. Bununla yanaşı Ermənistan üzərində parlaq qələbə münasibəti ilə dekabrın 10-da Bakıda keçirilən Qələbə Paradında Türkiyənin hökumət və dövlət rəhbərləri, o cümlədən Prezident Rəcəb Təyyub Ərdoğan iştirak etdi. Türkiyə Silahlı Qüvvələrinin mehmetçiklərinin Qələbə Paradında sıra keçidində iştirak etmələri bütün Türk dünyasına qürurverici anlar yaşatdı. Bu nümunəvi dəstək Ulu Öndər Heydər Əliyevin Türkiyə- Azərbaycan qardaşlığı barədə dediyi "bir millət iki dövlət", Mustafa Kamal Atatükün "Azərbaycan xalqının sevinci sevincimiz, kədəri kədəimizdir" tarixi fikirlərinin ruhuna tam uyğundur. Məhz buna görə də, türk dünyasının beynəlxalq aləmdə özünəməxsus yer tutması uğrunda müasir dövrün türk liderləri olaraq Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Təyyub Ərdoğan böyük xidmət göstərməkdədirlər. Hər iki ölkənin liderləri təkcə Türk Şurasının Zirvə Görüşlərində, Türk PA-da TÜRKSOY-da deyil, bütün sahələrdə əməkdaşlığın genişləndirilməsində əhəmiyyətli addımlar atır, qərarlar verirlər. İki dost, qardaş ölkə arasında iqtisadi-ticarət əlaqələri də, hər il artmaqdadır. Hazırda Türkdilli dövlətlər arasında Azərbaycan Türkiyə iqtisadiyyatına ən çox sərmayə qoyan ölkələrdən biridir. Azərbaycanın Türkiyə iqtisadiyyatına sərmayəsi 15 milyard, Türkiyənin Azərbaycan iqtisadiyyatına qoyulan sərmayəsi isə 12 milyard dollar təşkil edir. Bu günlər Türkiyədə baş verən meşə yanğınlarında Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin əməkdaşları yaxından iştirak edir. Bir millət iki dövlət prinsiplərinə uyğun olaraq yanğı söndürənlər ən gərgin nöqtələrində alovu ram etməyə çalışırlar. Bu fədakarlıq, mübarizlik türk qardaşlarımız tərəfindən alqışlarla qarşılanır. Deməк olar ki, Türkiyənin bütün KİV-ləri, sosial şəbəkələri azərbaycanlı yanğın söndürənlərin fədakarlığından yazırlar, fotolar paylaşırlar. Təbii ki, yanğınların qarşısı ən qısa zamanda alınacaq. Necə ki, 44 günlük Vətən müharibəsi dövründə Türkiyənin mənəvi, siyasi dəstəyi ilə erməni terrorçularını məhv edib, torpaqlarımızı azad etdik. Türk-Azərbaycan birliyi qarşısında heç bir qüvvə duruş gətirə bilməz. Bu baxımdan yanğınların söndürülməsi və onun ağır nəticələrinin ən qısa zamanda aradan qaldırılması şübhəsizdir.

**Azərbaycan Avropa İttifaqı ilə yaxın tərəfdaşlıq edir**

Ölkəmizin dünyada baş verən bütün siyasi - ictimai proseslərə təsir etmək imkanlarına malik olan Avropa İttifaqı ilə münasibətlər, əməkdaşlıq əlaqələri ən yüksək səviyyədə inkişaf etməkdədir. Bu mötəbər qurumla Azərbaycan arasında imzalanmış "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"ndə tərəflər arasında siyasi və ticarət sahəsində əməkdaşlıq, Azərbaycanın qanunvericiliyinin Avropanın hüquq sisteminə uyğunlaşdırılması məsələləri öz əksini tapmışdır. Avropa İttifaqı ilə əməkdaşlığa Azərbaycanın xüsusi önəm verdiyini bildirən Azərbaycan Prezidenti İlham Əliyevin qeyd edib ki, Azərbaycan Avropa İttifaqı ilə münasibətlərin inkişafında maraqlıdır və bunu dövlət siyasətinin prioriteti hesab edir: "Bu gün Azərbaycan Asiya ilə Avropa arasında yerləşən, regionumuzda dərin kökləri, Avropa ilə güclü əlaqəsi olan, Avropa dəyərlərini paylaşan bir ölkədir. Biz Avropa təsisatlarından aldığımız dəstəyə görə minnətdarıq. Əminəm ki, qarşıdakı illərdə Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlıq uğurla davam edəcək və tezliklə bizim qarşımızda yeni imkanlar açacaq yeni saziş imzalayacağıq".

Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin inkişafına daha bir töhfəni qurumun Prezidenti Şarl Mişelin iyulun 18-də Azərbaycana rəsmi səfəri ilə verdi. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Vətən müharibəsindən sonra regiona səfəri və Azərbaycan Prezidenti Cənab İlham Əliyevlə görüşü çox mühüm məsələlərin müzakirəsi ilə yadda qaldı. Şarl Mişel Bakıda olarkən status məsələsinə toxunmadı. Bu isə Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və Qarabağın ölkəmizin ayrılmaz hissəsi olduğunu təsdiqinin nümayişidir.

***Zakir Rəhimli***

## Türkiyənin üz-üzə qaldığı fəlakət və Azərbaycan qəhrəmanlarının şücaəti barədə FOTOREPORTAJ+ VİDEO



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğın-xilasetmə qüvvələrinin qardaş ölkədəki fəaliyyəti davam edir.

Ölkənin ən böhranlı bölgələrindən sayılan Muğla vilayətində alovla əzmlə mübarizə aparan Azərbaycanın qəhrəman övladları mətanət və şücaətləri ilə tarix yazır, hər bir nümunəvi davranışları ilə qardaş türk xalqında olan Azərbaycan sevgisini zirvələrə qaldırırlar.



AZƏRTAC-ın bölgəyə ezam olunmuş xüsusi müxbiri qəhrəman yanğınsöndürənlərimizlə birlikdə hərəkət edərək onların xilaskarlıq missiyasını orijinal foto və videolarla tarixləşdirir. Təqdim etdiyimiz fotolar avqustun 4-də Türkiyə vaxtı ilə saat 9:00-dan 12:00-dək olan fəaliyyət dövrünü əks etdirir.

Yanğınsöndürənlərimiz böhran məntəqəsinə çatmaq üçün hər gün kilometrlərlə piyada yol qət edərək alovla mübarizə aparırlar. Bütün bu çətinlikləri gündəlik həyat tərzinə çevirən yanğınsöndürənlərimiz qorxu bilmir, geri çəkilmir, alovla əzmlə mübarizə aparırlar.





# YAP Şəmkir rayon təşkilatının X hesabat konfransı keçirilib
















Avqustun 5-də Yeni Azərbaycan Partiyası Şəmkir rayon







təşkilatının videoformatda X hesabat konfransı keçirilib. Əvvəlcə Yeni Azərbaycan Partiyasının qurucusu, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Gündəlik təsdiq edildikdən sonra YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev hesabat məruzəsi ilə çıxış edib. F.Vəliyev bildirib ki, fəaliyyətini partiyamızın rəhbərliyinin tövsiyə və tapşırıqlarına uyğun şəkildə quran YAP Şəmkir rayon təşkilatı üzərinə düşən vəzifələri layiqincə həyata keçirməyə çalışıb. Qeyd olunub ki, hazırda YAP Şəmkir rayon təşkilatı 112 ilk partiya təşkilatını özündə birləşdirir və üzvlərinin sayı 11 min 942 nəfərdir. Üzvlərin 7011 nəfərini qadınlar, 3905 nəfərini isə gənclər təşkil edir.

Sonra YAP Şəmkir rayon təşkilatı Nəzarət-Təftiş Qrupunun sədri Pərvin Gözəlovun hesabatı dinlənilib.

Konfransda Milli Məclisin deputatı Nizami Səfərov çıxış edərək Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolu, partiyamızın Sədri, Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticələri, Vətən müharibəsində qazanılan möhtəşəm qələbə, eləcə də Şəmkir rayonunun sosial-iqtisadi inkişafı barədə fikirlərini bölüşüb.

Müzakirələr zamanı YAP Şəmkir rayon təşkilatı Gənclər Birliyinin sədri Emin İsmayılov, rayon təşkilatı Qadınlar Şurasının sədr əvəzi Qətibə Məmmədova, rayon təşkilatının Şura üzvləri Cavanşir Pirverdiyev, İlhamə İbrahimova və İlkin Musayev çıxış edərək təşkilatın hesabat dövrü ərzindəki fəaliyyətindən danışıblar.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, ulu öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası ötən illər ərzində böyük inkişaf yolu keçib, ölkəmizin tərəqqisinə özünün mühüm töhfələrini verib. Partiyamızın öz fəaliyyətində daim yeniliklərə önəm verdiyini deyən Ə.Tağıyev qeyd edib ki, bu baxımdan VII qurultayda qəbul olunmuş qərarlar partiyamızın Sədri, Prezident İlham Əliyevin qurultayda qarşıya qoyduğu hədəflər hər bir partiya üzvü üçün yeni vəzifələr müəyyənləşdirir.

X hesabat konfransının keçirilməsi münasibətilə YAP Şəmkir rayon təşkilatının üzvlərini təbrik edən Əhliman Tağıyev təşkilatın gələcək fəaliyyətində uğurlar arzulayıb.

Qeyd edək ki, konfransda YAP Şəmkir rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Elman Nəsirov: Növbədənkənar parlament seçkilərinin, referendumun keçirilməsi ilə bağlı məsələlərdə heç bir ictimai sifariş yoxdur



Bu, müəyyən antimilli, Azərbaycanı istəməyən dairələrin ortaya atdığı spekulyasiya istiqamətində addımlardır. "Milli Məclisin buraxılacağı, növbədənkənar parlament seçkilərinin, eyni zamanda, referendumun keçiriləcəyi ilə bağlı yayılan xəbərlər əsassızdır, qərəzlidir və müəyyən siyasi dairələrin məqsədinə xidmət edir. Hər bir hadisənin baş verməsi üçün onu şərtləndirən amillər olmalıdır. Bugünkü reallıqlar ondan ibarətdir ki, sözügedən proseslərin baş verməsi üçün ölkədə heç bir amil, əsaslar yoxdur. Çünki ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, indi biz yeni tarixi dövrə daxil olmuşuq. Tarixi Qələbəyə imza atmışıq və yeni tarixi dövrdə qarşımızda yeni hədəflər mövcuddur. Bunlar ilk növbədə Qarabağın bərpası və yenidən qurulması, həmin ərazilərin minalardan təmizlənməsi və Böyük Qayıdışın həyata keçirilməsi ilə bağlıdır. Ermənistanla sülh müqaviləsinin bağlanması da vacib məsələlərdən biridir."

Bu fikirləri Milli Məclisin deputatı Elman Nəsirov bildirib.

E.Nəsirov qeyd edib ki, bütün bu reallıqlar fonunda növbədənkənar parlament seçkilərinin, referendumun keçirilməsinə ehtiyac varmı? Buna o halda ehtiyac olardı ki, parlament öz üzərinə düşdüyü funksiyanı yerinə yetirə bilməsin: "Halbuki VI çağırış Milli Məclisin fəaliyyəti kifayət qədər uğurlu olub. Parlament qanun yaradıcılığı, deputatların ölkənin ictimai-siyasi həyatında fəal iştirakı, mətbuata açıq olmaları, seçicilərlə müntəzəm görüşləri və onların problemlərinin həlli istiqamətində atılan addımlar nöqteyi-nəzərindən kifayət qədər uğurlu fəaliyyət göstərib. Həmçinin Milli Məclisin sədri hörmətli Sahibə xanım Qafarova sözün həqiqi mənasında parlamentə xanım kübarlığı gətirib. Bütün məsələlər operativ şəkildə açıq müzakirə olunur. İclaslar başlayarkən 30-45 dəqiqə ərzində cari məsələlər müzakirə edilir, hər kəs öz istədiyi fikri açıq şəkildə ifadə edir."

Millət vəkili parlamentin beynəlxalq əlaqələrinə də diqqəti yönəldərək bildirib ki, bu sahədə də Milli Məclisin əlaqələri kifayət qədər güclüdür: "Milli Məclisin sədri Sahibə xanım Qafarovanın rəhbərliyi ilə Türkiyəyə, Pakistana, Rusiyaya, Macarıstana olan yüksək səviyyəli səfərlər və əldə olunan nəticələr, eyni zamanda, Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin imzaladığı Bakı Bəyannaməsi, bütün bunlar göstərir ki, parlamentimiz diplomatik cəhətdən də çox uğurlu fəaliyyət göstərir. Bu reallıqları, həmçinin parlamentdə çoxpartiyalı təmsilçiliyi nəzərə aldıqda qeyd edə bilərik ki, Milli Məclisin ilyarımlıq fəaliyyəti səmərəli olub. Parlamentin buraxılması, növbədənkənar parlament seçkilərinin, eyni zamanda, referendumun keçirilməsi ilə bağlı məsələlərdə heç bir ictimai sifariş yoxdur. Bu, müəyyən antimilli, Azərbaycanı istəməyən dairələrin ortaya atdığı spekulyasiya istiqamətində addımlardır."

# "BE-200ÇS" tipli amfibiya təyyarəsi Türkiyə Respublikasına yola salınıb

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, FHN-ə məxsus "BE-200ÇS" tipli amfibiya təyyarəsi Türkiyə Respublikasına yola düşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin müvafiq yanğın-xilasetmə qüvvələrinin növbəti - 3-cü qrupu avqustun 5-də saat 10:00-da yola salınıb.



Yanğın-xilasetmə qrupuna 40 ədəd yanğınsöndürmə texnikası və 150 nəfər yanğınsöndürən daxildir.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, FHN-in yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət birinci qrup iyulun 30-da ikinci qrup - 1 helikopter, 53 yanğınsöndürən və xüsusi təyinatlı xilasetmə texnikası, 1 tibbi yardım avtomobili, 220 yanğınsöndürən və xilasedic Türkiyəyə yola düşüb.

# YAP Samux rayon təşkilatının VIII hesabat konfransı keçirilib






*Avqustun 5-də Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatının videoformatda VIII hesabat konfransı keçirilib.*



Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Konfransın gündəliyi təsdiqləndikdən sonra hesabat məruzəsi ilə çıxış edən Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatının sədri Gündüz Bayramov bildirib ki, rayon təşkilatı Yeni Azərbaycan Partiyasının mütəşəkkil, mübariz təşkilatlarından biridir. Hazırda rayon təşkilatı 104 ərazi ilk partiya təşkilatında 6318 partiya üzvünü birləşdirir.

O qeyd edib ki, hesabat dövründə təşkilata gənclərin axını xüsusi diqqət çəkib. Belə ki, hazırda təşkilatın üzvlərinin 31 faizini, yəni 1648 nəfərini gənclər təşkil edir.



G.Bayramov vurğulayıb ki, YAP Samux rayon təşkilatının fəaliyyətinin əsas qayəsini müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, partiyanın yaradıcısı, ümummilli lider Heydər Əliyevin ideyalarının təbliği təşkil edir. Bu məqsədlə rayon təşkilatında müntəzəm olaraq müxtəlif məzmunlu tədbirlər, konfranslar, görüşlər, idman, bilik yarışları və digər tədbirlər keçirilib.

2020-ci ilin Azərbaycan xalqı üçün Zəfər ili olduğunu bildirən təşkilat sədri deyib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin qazandığı bu tarixi Qələbə hər bir azərbaycanlıya yeni həyat bəxş etdi. Azərbaycan yeni reallıqlar yaratdı ki, bu da həm ölkəmiz, həm də bütövlükdə region üçün perspektivlər vəd edir, yeni çağırışlar formalaşdırır. Qeyd olunanlar fonunda Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsi zamanın tələbinə çevrildi. Biz gələcəyə çox böyük inamla baxırıq. Seçdiyimiz yol Heydər Əliyev yoludur, müstəqil Azərbaycanımızı, xalqımızı xoşbəxtliyə, dövlətimizi müasir, zəngin və qüdrətli dövlətlər sırasına aparan yoldur. Xalqımız əmindir ki, Azərbaycana daim uğurlar gətirən bu yol bundan sonra da uğurlu olacaq.



Sonra YAP Samux rayon təşkilatının Nəzarət-Təftiş Komissiyasının sədri Şakir Məmmədovun hesabatı dinlənilib.

Müzakirələr zamanı YAP Samux rayon təşkilatı İdarə Heyətinin üzvü, Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev, Milli Məclisin deputatı Nizami Səfərov, rayon təşkilatının sədr müavini Şəmistan Yusifov, Samux şəhər 3 saylı tam orta məktəb ərazi ilk partiya təşkilatının sədri Nuridə Həsənova, rayon təşkilatı Gənclər Birliyinin üzvü Qurban Həsənov çıxış edərək təşkilatın hesabat dövrü ərzində gördüyü işlərdən bəhs ediblər.





Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, partiyanın uğurlarının əsasında xalqın sevgisi, dəstəyi dayanır. Yarandığı gündən xalqın partiyası kimi tanınan və nüfuz qazanan Yeni Azərbaycan Partiyası öz sıralarında 760 mindən artıq üzvü birləşdirir. Bu rəqəm xalqın Heydər Əliyev ideyalarına sadiqliyinin, həyata keçirilən siyasətin gələcəyinə inamın göstəricisidir. Heydər Əliyev ideyaları Azərbaycanın dünəninin, bu gününün və sabahının əsasıdır. Bu gün Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb, Azərbaycanı qalib ölkəyə çevirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası yeni reallıqların qarşıdakı illər üçün müəyyənləşdirdiyi hədəflərə yüksək səviyyədə nail olmaq potensialına, gücünə malikdir.



Ə.Tağıyev YAP Samux rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb.

Konfransda YAP Samux rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Sosial şəbəkələr istifadəçilərin tribunasıdır

***Müasir dünya, müasir çağırışlar. Zaman və cəmiyyət bir-birinin tələblərini qloballaşan dünyada tarazlaya bilirmi? Hər iki məfhumun ahənginin tələbinə uyğunlaşmaq əlbəttə ki, müasir dünyamızın nizamını düzənləməkdə vacibdir. Belə bir zamanda hər bir şəxs tutdutu vəzifədən asılı olmayaraq, özünə qarşı diqqətli və tələbkar, eləcə də məsuliyyətli olmalıdır. Yad, kənar qüvvələrin xoşagəlməz təsirindən uzaqda, milli dəyərlər kontekstində sağlam baxış, sağlam düşüncə mühüm əhəmiyyət kəsb edir. Zamanın diqtəsi hər bir məqamı saf-çürük edərək, nəticə çıxarmağı tələb edir.***





İyirmi birinci yüzillik ziddiyyətlərlə dolu olan bir dünyada, yaşadığımız dövrdə təbii ki, xalqımızın tarixi, milli-mənəvi dəyərləri, adət-ənənələri qorunub saxlanılmalıdır və onlara hörmətlə yanaşmaq vacib və mütləqdir. Nə qədər müasirliyi qəbul etmiş olsaq da, unutmamalıyıq ki, tarixi köklərimizə hörmət bizə ucalıq, mənəvi yüksəklik gətirir.

Yeni dövrün çağırışları cəmiyyətimizin yenilənməsinə, təkmilləşməsinə zərurət yaradıb. İnformasiya texnologiyalarının inkişafı müasir dünyaya, eləcə də Azərbaycan cəmiyyətinə kifayət qədər yeniliklər gətirib. Sosial şəbəkələr bu gün aktuallıq kəsb edir. Onlardan ”Facebook”, ”Twitter”, ”İnstagram” kimi sosial şəbəkələrin istifadəçiləri dünyanın ən ucqar nöqtəsində olan insanlarla ünsiyyət yaratmaq, fikir bildirmək və bölüşmək, aktual məsələlər ətrafında müxtəlif sorğular təşkil etmək, müzakirələr aparmaq və s. iqtidarındadırlar. Əlbəttə ki, burada istifadəçinin məqsədi isə önəmli faktordur.Bəzi hallarda ölkəmizdə hökm sürən azadlıqdan, sərbəstlikdən sui-istifadə edən bəzi insanlar sosial şəbəkələri, onlayn medianı, internet resurslarını, savaş, söyüş meydanına çevirir, yalan, heç bir mənbəyə əsaslanmayan məlumatlar yayaraq, Azərbaycanda olan söz azadlığından sui-istifadə edirlər. Bu gün özlərini dünyada insan hüqüqlarının müdafiə olunduğu, demokratik dəyərlərin bərqərar olunduğu ölkə olaraq təqdim edənlərdə belə bir mühit yoxdur. Amma Azərbaycan mühiti tamamilə fərqlidir. Hər kəs öz fikrində, düşüncəsində azaddır və istədiyini, düşüncələrini açıq şəkildə paylaşa bilir. Bu demokratik bir mühitin göstəricisidir. Amma yaradılan mühit o demək deyil ki, kimsə, qərəzli mövqeyini ortaya qoysun. Kimsə, dövlətimizə qarşı öz qərəzini ictimailəşdirməyə çalışsın. Onların belə mövqeyinin bir amalı var: Azərbaycanla bağlı həqiqəti əks etdirməyən məlumatlara, məqamlara yer vermək, mövcud durumumuza kölgə salmaq. Təbii ki, Azərbaycana qarşı qərəzli mövqe tutan, ölkəmizin dünyadakı artan nüfuzuna və imicinə qısqanc yanaşanlar əsassız iddialar irəli sürürlər. Hər bir sosial şəbəkə istifadəçisi paylaşdığı əsassız fikirlərə görə məsuliyyət daşıyır.

Bu gün Azərbaycan dövlətində söz və mətbuat azadlıqlarının qanunvericilik bazası demokratikləşdirilib. Azad söz, azad fikrin bərqərar olduğu cəmiyyətdə əlbəttə ki, azad düşüncə Azərbaycan maraqlarına xidmət etməlidir. Bu gün informasiya məkanı elə bir vəziyyətdədir ki. istəsək də, istəməsək də qapımızı döyür. Əlimizdə olan telefonla bütün dünyandan məlumat belə ala bilirik. Müasir dövrün tələblərinə uyğun olaraq virtual məkan genişləndikcə internetdə mövcud olan sosial şəbəkələrin də sayı artır. Bu, danılmaz faktdır. Belə bir dövrdə yaşadığımız zamanda sosial şəbəkələrdə yer alan milli-mənəvi dəyərlərimizə zidd yazılar, fikirlər, videolar çirkin niyyətli insanların məhsuldur.

### SAĞLAM TƏNQİD, SAĞLAM YANAŞMA İNSANIN İNTELEKTİNİ ORTAYA QOYUR

Sosial şəbəkələrdən sui-istifadə edən şəxslər bilməlidirlər ki, Azərbaycanın əxlaq normalarına zidd hərəkətləri heç də qəbuledilən deyil. Bu sosial şəbəkələrdə hər nəslin nümayəndələri, xüsusilə gənclər çoxluq təşkil edir. Etiraf edək ki, sosial şəbəkələrdəki real mənzərə cəmiyyət tərəfindən birmənalı qarşılanmır. Gündəlik həyatda sosial şəbəkələrin müsbət tərəflərini müşahidə etsək də, kifayət qədər mənfi tərəfləri də özünü büruzə verir. Bu da mənəvi-əxlaqın keyfiyyətlərimizə, mənəvi mühitimizin korlanmasına təsirsiz ötüşmür. Sosial şəbəkələrdə bəzi məqamlarda istifadəçinin görünüşünə, danışıqlarına, manevrlərinə diqqət yetirsək, görərik ki, onlar heç də cəmiyyətə müsbət mesajlar ötürmürlər. Xəstə təxəyyüllü insanlarla tez-tez rastlaşırıq. İstər dövlətçiliyimiz əlehinə, istərsə də cəmiyyətimiz üçün heç də yaxşı olmayan mənzərələrin şahidinə çevrilirik.

Sosial şəbəkələrdə mövcud vəziyyətlə bağlı məsələdə ictimai qınaqla yanaşı, hüquqi məsuliyyət də dərk etməlidirlər. Cəmiyyət susmamalı, öz mövqeyini ifadə etməlidir. Hər kəs sağlam mövqeyini ortaya qoymalıdır. Əgər onlar əxlaqsız sözlər danışırlarsa, söyürlərsə buna mütləqdir ki, tədbir görülməlidir. Heç kim kimisə təhqir edə bilmək hüququnda deyil. Sağlam tənqid, sağlam yanaşma insanın intelektini ortaya qoyur. Heç də xoşgəlməyən hal kimi, sosial şəbəkələr səbəbindən intihara cəhd edənlərin olması da istisna deyil. Hətta sosial şəbəkələrdə vəziyyət elə bir məqama yüksəldi ki, narkotik alverçiləri bura yol aldılar. Təbii ki, onların bu addımı cavabsız qalmadı və hüquq mühafizə orqanları tərəfindən lazımi tədbirlər görülüb. İnsan hüquq və azadlıqlarının qorunması, fikir plüralizminə ölkəmizdə xüsusi diqqət var. Sosial şəbəkələrdə müstəqillik o demək deyil ki, hər kəs istədiyi şəkildə dövlətinə, xalqına şər-böhtan yağdıra bilər, hansısa bir insanın şəxsi həyatına müdaxlə edə, yaxud ona böhtan ata bilər. Təbii ki, Azərbaycan Konstitusiyası ilə hər bir vətəndaşın hüquqları qorunur.

Sosial şəbəkələrdə sakitliyi pozmağa cəhd etmək niyyətində olan şəxslərə təsadüf edirik. Bizim yaşadığımız cəmiyyətdə belə gənclər say baxımından az faiz təşkil edirlər. Təbii ki, Azərbaycan dövlətçiliyini, müstəqilliyini dəstəkləyən gənclərlə müqayisədə onlar nəzərə çarpmır. İnkişaf olan yerdə problemlərin yaşanılması mümkündür. Hər hansı bir gənc ambisiyasına, məqsədinə görə səhv addımlar ata bilər. Amma dövlətə, millətə və vətənə qarşı səhv addım atmaq qeyri-mümkündür. Bu məqsədlə, dövlətə xəyanət məqsədilə atılan addım gəncləri fəlakətə sürükləyə bilər. Bu gün Azərbaycan gəncləri böyük uğurlar qazanıb. Dövlətin dəstəyi ilə qazanılan uğurlar Azərbaycanın nailiyyətləridir. Gənclərimiz inkişaf ediblər və onların intellektual potensialı yüksəlib.



Azərbaycan xalqı böyük xalqdır. 44 günlük Vətən müharibəsində xalqımız dövlətimiz, Prezidentimiz ətrafında sıx birləşdi, həmrəylik göstərdi. Vətəni sevən oğullarımız şəhid oldular, torpaq uğrunda qəhrəmancasına vuruşdular. Bizim gəncliyin nümunəvi simaları var, Güclü, əqidəli, dönməz. Bu oğullarla biz fəxr edirik. Amma təəssüf ki, bəzi gəncliyi təmsil edən sosial şəbəkə istifadəçilərindən milli dəyərlərimizə yad olan fikirləri ilə rastlaşırıq. Mənəvi dəyərləri, əxlaqi, estetik gözəllikləri qorumaq üçün ayıq-sayıq olmalıyıq. Mənəviyyatımıza zidd olan fikirlərin ortaya çıxmasına qətiyyən yol verilməməlidir. Müasir dövrdə sosial şəbəkələrdən düzgün istifadənin təbliği çox mühüm əhəmiyyətə malikdir. Sosial şəbəkələr sanki hər bir istifadəçinin tribunasına çevrilib. Bundan səmərəli və faydalı məsələlər üçün istifadə olunmalıdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Özbəkistan portalı Qarabağdakı erməni vandalizmindən yazır

Özbəkistanın ”ishhonch.uz” portalında ”Fransa jurnalistləri Qarabağda erməni vandalizmindən dəhşətə gəliblər” sərlövhəli məqalə yerləşdirilib.


ISHONCH.UZ ЎЗБЕКИСТОН ДУНЁ ЖАМИЯТ ВИДЕО АУДИО

Франциялик журналистлар Қорабоғда содир этилган вандализм ҳолатларидан даҳшатга тушишди

02.08.2021

Озарбайжоннинг мамлакатга ташриф буюрувчи расмий доиралар билан ишлаш давлат қўмитаси кўмагида француз журналисти, тарихчи Ален Руместанд ва франциялик фотосуратчи Григорий Эрпен озод этилган Шуша шаҳри ва унинг Зангилан ҳамда Губадлин туманларига ташриф буюрдилар.

ОММАБОП

Аҳиллик ва прагматизмга асосланган ташқи сиёсат

Ўзбекистон қарийб 70 минг тонна помидор экспорт қилди

Меҳнат миграциясига кетаётган фуқароларга компенсация тўланади

Навоий вилоятида автомашина харид қилиш учун шартнома олиб беришни ваъда қилган...

Sayt yazır ki, Azərbaycan Respublikası Diaspora İş üzrə Dövlət Komitəsinin dəvəti ilə Bakıya gələn fransız jurnalist Alen Rumestand və fotoqraf Qreqori Erpen işğaldan azad olunan Zəngilan, Qubadlı rayonlarında və Şuşa şəhərində olublar.

Səfər zamanı onlar 30 il ərzində erməni vandalizminin nəticələrinin-dağıdılan şəhər və kəndlərin, yerlə-yeksan edilən məscidlərin, Oxçuçayın və digər su mənbələrimizin çirkləndirilməsinin şahidi olublar.

Onlar bildiriblər ki, Fransaya qayıtdıqdan sonra Qarabağda gördükləri vandalizm siyasəti, azad olunan torpaqların indiki vəziyyəti haqqında geniş məqalələrlə çıxış edəcəklər.

Sayt yazır ki, fransız jurnalistlər Bakının gəzməli yerlərində də olublar. Qonaqlar sosial şəbəkələrdə Azərbaycan paytaxtının onları valeh etdiyini yazıblar. Material Özbəkistandakı Heydər Əliyev adına Azərbaaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə çap olunub.

# Türkiyədə meşə yanğınları, Qarabağda məhv edilən meşələr və tarixin dərsləri haqqında...







***Qarabağ bərpa edilərək əvvəlkindən daha da gözəl və yaşıl olmalıdır! Bu, bizim mənəvi borcumuzdur.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev deyib. O vurğulayıb ki, avqustun 2-də Böyük Britaniyanın "The Guardian" nəşri Türkiyə hakimiyyətinin dünya ictimaiyyətini on minlərlə hektar ərazini məhv edən dəhşətli yanğınlara qarşı mübarizədə onlara yardım göstərməyə çağırması barədə xəbər dərc edib. Avqustun 3-də isə Türkiyənin "Daily Sabah" nəşri meşələri bürüyən alovla mübarizədə dost və müttəfiqlərinin Türkiyəyə kömək etdiklərinə dair xəbər yayıb. Artıq dəstək göstərən ölkələr arasında qardaş Azərbaycan, Rusiya, Ukrayna, İran, Xorvatiya və İspaniya var. KİV-in məlumatına görə, bu siyahıda Avropa İttifaqı yoxdur. Fransa və Yunanıstan isə yardım göstərməkdən imtina ediblər. Halbuki "Köhnə dünya" və Yaxın Şərq arasında bufer rolunu oynayan və müharibənin dəhşətlərindən qaçan qaçqın axınının qarşısını alaraq, uzun illər Avropa İttifaqına böyük dəstək göstərən məhz Türkiyə olub. "Sivil Qərbin" bu cür münasibəti kimisə təəccübləndirə bilər, amma məni yox. Bundan bir neçə həftə əvvəl Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Brüsselin Ermənistana 2,6 milyard avro məbləğində maliyyə dəstəyi göstərməyə hazır olduğunu təsdiqləyib. Eyni zamanda, KİV-in məlumatına görə, yaxın 5 il ərzində Avropa İttifaqı Azərbaycana 150 milyon avroya yaxın vəsait ayırmağı planlaşdırır. Yəni, təxminən 17 dəfə az.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri diqqətə çatdırıb ki, biz bu dünyada, ilk növbədə, özümüzə arxalanmalıyıq. Bu gün Türkiyədə baş verən yanğınları laqeydcəsinə izləyənlər, on illərlə Qarabağın ekologiyasını məhv etmiş bir ölkəyə maliyyə dəstəyi üçün milyardlarla avro ayıranlar, çətin ki, işğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı təşəbbüslərimizi dəstəkləsinlər. Mən artıq yazmışdım ki, təkcə 2014-2018-ci illərdə Qarabağda bütün Ermənistandakından 2,3 dəfə çox ağac qırılıb. İşğal illərində ermənilər Qarabağın meşə örtüyünün təxminən 20 faizini məhv ediblər. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, məhv edilmiş ağaclar arasında qoz, xurma, palıd və Eldar şamı kimi qiymətli ağac növləri də var. Ancaq işğal illərində Azərbaycanın meşə örtüyünün sistemli şəkildə məhv edilməsi ermənilərə azlıq edib. 44 günlük müharibə zamanı Qarabağın ekologiyasına daha böyük zərbə vuruldu - ermənilərin fosfor bombalarından istifadə etməsi nəticəsində baş verən yanğınlar meşə massivlərinin geniş ərazisini əhatə etdi. Hərbi əməliyyatların dayandırılması haqqında saziş bağlandıqdan sonra isə ermənilər möhlət hüququndan istifadə edərək Kəlbəcərdə tələm-tələsik meşələri qırmağa və evləri yandırmağa başladılar, təki bütün bunlar həmin torpağın əsl sahibi olan azərbaycanlılara qalmasın. 20 ildən artıq müddət ərzində dünya ictimaiyyəti (təbii ki, ən yaxın dostlarımız istisna olmaqla) nə edirdi? Bəli, erməni işğalçı qüvvələrinin Qarabağın təbii ehtiyatlarını talan etməsini, meşələri qırmasını, narkotrafikinqlə məşğul olmasını, su terroru törətməsini, cəbhəyanı bölgələri atəşə tutmasını, ərazilərimizə külli miqdarda mina basdırmasını və başqa qeyri-qanuni fəaliyyətlərdən çəkinməməsini dinməz-söyləməz izləyirdi. Biz işğalın nəticələrinin aradan qaldırılmasında həmin "səssiz müşahidəçilərin" dəstəyinə ümid bəsləyə bilərikmi? Mən buna şübhə edirəm. Deməli, biz, ilk növbədə, özümüzə arxalanmalıyıq. Şükürlər olsun ki, dövlətimiz xarici donorlardan kömək gözləmədən bu işə başlamaq üçün kifayət qədər resurslar var.













Rəhman Hacıyev, eyni zamanda, bildirib ki, erməni işğalçıların Qarabağa vurduğu zərər həddindən artıq böyükdür. Söhbət onlarla yaşayış məntəqəsindən - yer üzündən silinmiş kənd, qəsəbə və şəhərlərdən gedir. Söhbət bu torpaqları yaşayış və qayıtmağımız üçün tamamilə yararsız hala salmaq məqsədilə dağıdılmış və ya tamamilə məhv edilmiş minlərlə evdən və tarixi abidələrdən gedir. Söhbət kəsilərək Ermənistana aparılmış yüz minlərlə gözəl ağacdan, o cümlədən endemik ağaclardan gedir. Söhbət faydalı qazıntıların amansızcasına hasil edilməsi nəticəsində yaranan zəhərli maddələrin atılması üçün istifadə olunan minlərlə hektar ərazidən gedir. Bir sözlə, söhbət İkinci Dünya müharibəsi zamanı nasist işğalının fəsadları ilə müqayisə edilə biləcək zərərdən gedir. Mənə tez-tez sual verirlər: "Qarabağa nə vaxt qayıda biləcəyik?" Mən dəqiq tarixi bilmirəm, amma bir şeydən tam əminəm ki, əgər biz Qarabağın bərpası prosesini sürətləndirmək istəyiriksə, bu müqəddəs missiyada dövlətimizi dəstəkləməliyik. Bunun üçün Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılmış müvafiq platformamız var - Qarabağ Dirçəliş Fondu. Fonda ianə etməklə, hər birimiz Qarabağın bərpasına öz töhfəmizi verə bilərik. Bu, niyə təhlükəsizdir? Bunun bir neçə səbəbi var. Onlardan, sadəcə, bir neçəsi aşağıdakılardır:

- Fond hər il dövlətimizin başçısına öz fəaliyyəti və bütün xərcləri ilə bağlı hesabat verəcək;
- Fond, həmçinin hər il ictimaiyyət qarşısında hesabat verəcək, görülən işlər və xərclənmiş vəsaitlər barədə ictimaiyyəti məlumatlandıracaq;
- Fond hər il beynəlxalq auditor şirkəti tərəfindən yoxlanılacaq və auditorların rəyini dərc edəcək;
- Fond yığılan ianələrin bir qəpiyini də öz inzibati xərcləri (əməkhaqqı, ofis icarəsi və sair) üçün xərcləmir və xərcləməyəcək.

Bu, bizim Müşahidə Şuramız tərəfindən təsdiq edilmiş prinsipial mövqeyimizdir (bu barədə tezliklə daha ətraflı yazacağam).

Ona görə də bu yazını yekunlaşdırarkən yaşadığı ölkədən asılı olmayaraq bütün qardaş və bacılarımıza müraciət etmək istərdim: Əgər siz Qarabağın, onun gözəl, sıx meşələrinin, tarixi abidələrinin, ev, məktəb və xəstəxanalarının bərpası prosesini sürətləndirmək istəyirsinizsə, bu prosesə öz töhfənizi verərək dövlətin səylərini dəstəkləyin. Bunun üçün cəmi bir neçə kliklə Qarabağ Dirçəliş Fonduna ianə köçürmək kifayətdir. Hər qəpik dəyərlidir!

PS: Erməni işğalçıların Qarabağa vurduqları ziyan barədə ətraflı məlumatı "Karabakh.Center" saytında (üç dildə) oxuya bilərsiniz: Cinayət. Prestupnəə deətelğnostğ. Crime.

Ermənilər tərəfindən dağıdılmış minlərlə ev, abidə, qəbiristanlıq və görməli yerin fotoşəkillərinə "Karabakh.Center" saytında (üç dildə) baxa bilərsiniz: Urbisid. Urbiüid. Urbicide.
https://www.youtube.com/watch?v=nSVgxTQV_V4&feature=emb_title

# Bakıda yol mədəniyyəti

***Deyirlər ki, hər bir xalqın mədəniyyəti yoldan başlayır. Bu sözlərdə böyük həqiqət vardır. Yol həm də iqtisadiyyat və həyatdır. Yalnız bunu demək kifayətdir ki, yolun rahat olması, intensivliyin olması insanda xoş ovqat yaradır. İnsanın davranışı, danışığı onun mədəniyyətinin göstəricilərindən biridir. Davranış qaydalarına əməl etmək, həm də ətrafdakılara hörmət əlamətidir. Bu baxımdan sürücü və piyadalar üçün vacib olan bir sıra qaydaları bilmək və onlara əməl etmək, diqqətli və məsuliyyətli olmaq mədəniyyətdən xəbər verir.***

Sürücülük mədəniyyəti yolların təhlükəsizliyi baxımından olduqca vacibdir. Mədəni sürücü digər hərəkət iştirakçılarına kömək edir, özü yol hərəkəti qaydalarını, vəzifələrini bilir və onlara əməl edir. Bu qaydalara əməl etmədikdə isə intensivlik pozulur və faciələr yaranır.



Hər bir hərəkət iştirakçısı nəzərə almalıdır ki, yol mədəniyyəti insanları və cəmiyyəti birləşdirən əsas meyardır. Bu meyarı qorumaq hər birimizin hüquq və vəzifəsi olmaqla qalmır, həm də mənəvi məsuliyyətidir. Çünki yollarda məsuliyyət həddən artıq fərdidir, özünəməxsusluq daşıyır. Hər bir hərəkət iştirakçısı - sürücü, piyada yollarda şəxsi maraqlarını yox, bütün cəmiyyətimiz üçün adi həyat norması olan qanunlara ehtiramla yanaşmaqla əməl etməlidir.



Unutmayın ki, yollardakı işarələr, işıqforlar, müxtəlif qurğular sürücü və piyadaların - bir sözlə, bütün hərəkət iştirakçılarının qanuna əməl etməsinə, insanların təhlükəsizliyinə xidmət edir. Hər kəs buna bir nəfər kimi əməl etməyə borcludur.

Lakin çox vaxt piyadalar piyada keçidindən istifadə etməzdən əvvəl vəziyyəti dəyərləndirmirlər. Piyada nəzərə almalıdır ki, maşın sürətlə hərəkət edə bilər və yaxud sürücünün fikri yayındığından yoldakı ani dəyişikliyə hazır olmaz. Ona görə də piyada keçidindən istifadə etməzdən əvvəl sürücünün sizə yol verəcəyinə əmin olmağınız vacibdir. Yollarda bəzilərinin etdiyi kimi deyil, yol hərəkəti qaydalarının tələbinə uyğun hərəkət edin. Sərbəst düzgün qərarlar verməyi öyrənin.



Müşahidələrimiz zamanı gəldiyimiz nəticə isə bunu deməyə imkan verir ki, şəhərimizdəki sürücü-piyada münasibətlərində gərginlik müşahidə olunur, piyadalar öz vəzifələrinə hələ də biganə yanaşırlar. Halbuki "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 40-cı maddəsində piyadaların da vəzifələri nəzərdə tutulub. Qanunda yolda piyadanın istiqamətinin tənzimlənməsindən tutmuş hər hansı pozuntuya görə tətbiq edilən cəriməyədək hər şey öz əksini tapıb. Ancaq təəssüflər olsun ki, hələ də piyadalarımızın əksəriyyəti yol hərəkəti qaydalarının pozulmasında yalnız sürücüləri günahkar bilirlər. Məsələnin digər tərəfi ondan ibarətdir ki, bəzilərimiz piyada kimi öz vəzifəmizi dərk etsək də, qanunlara əməl etməyi, necə deyərlər, sevmirik. Bəzən bir çox məsələlərdə Avropa ölkələrini nümunə gətirib onlardakı müxtəlif mədəniyyət nümunələrindən heyranlıqla danışırıq. Lakin unuduruq ki, Azərbaycan sahib olduğu mədəniyyətlə dünyada tanınan ölkədir. Onda nəyə görə biz yol mədəniyyətimizi nümayiş etdirməyək?

Sürücü və piyadaların "tələsirəm, görmədim, bilmədim, xəstəm var, adam gözləyirəm - bir dəqiqəyə gəlir, uşaq məktəbdə qalıb, yolu tanımıram, dərman alıram", - deyə-deyə dayanma, durma və parklanma qaydalarını pozması yollarda gündəlik vərdişə çevrilib. Başqa müşahidə olunan hallar da var. Məsələn, dayanma, durma və parklanma qaydalarını pozmaqla, nəqliyyat vasitəsini tərk edərkən mütləq avtomobilin salonunda "keşikçi-sərnişin" təyin edir. Bu keşikçinin məqsədi yol polisi tərəfindən nəqliyyat vasitəsinin evakuasiya olunmasının qarşısını amaq, "bu dəqiqə gəlir" - deməkdən ibarət olur.

ANALİZ

***Zərdüşt Quluzadə***

# Qarabağ qazilərini intihara sövq edən nədir - NƏ ETMƏLİ?

## PSİXOLOQ VƏ EKSPERT AÇIQLADI

"44 günlük müharibədən sonra bilirik ki, müharibənin acı halları yeni top, tüfəng səsləri, qazilərimizin fiziki problemlərinin yaşaması onların həyatında müəyyən qədər köklü dəyişiklər etdi". Bu sözləri SiA-ya açıqlamasında **psixoloq, psixoterapevt Könül Cəfərova** deyib.



Onun sözlərinə görə, müharibənin təsiri nəticəsində qazilərimizin həyatında psixoloji sarsıntılar oldu və onların həyatında dərin izlər qoydu: "Lakin buna baxmayaraq dövlətimiz, başda cənab Prezidentimiz İlham Əliyev və Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyeva olmaqla digər dövlət qurumlarımız qazilərimizin yanında olur və onlara dəstək olurlar. Qazilərimiz üçün hər cür şərait yaradılıb, hətta onlar üçün könüllü psixoloqlar qurumuda yaradıldı ki, birbaşa qazilərimiz üçün fəaliyyət göstərilsin. Amma qəbul etməliyik ki, qazilərimizin psixoloji durumları o qədər ağırdır ki, mən düşünürəm ki, bu könüllük prinsipinə əsaslanmamlıdır, biraz məcburiyyət şəklində olmalıdır ki, artıq qazilərin yaşayış ünvanına psixoloqlar göndərilməlidir və onlarla birmənalı şəkildə psixoloji iş aparılısın. Təbii ki, bu seanslar qazilərimizlə onlayn şəklində də aparıla bilər. Mənim fikrimcə, qazilərimizlə nə qədər çox seanslar keçirilsə, bir o qədər onların psixoloji durumunda müsbətə doğru dönüş yaranacaq. Belə desək qazilərimiz fərqli bir həyatdan başqa bir həyata düşdülər. Və fərqli bir həyata düşdükləri bu anlarda qazilərimizə dəstək olmalıyıq. Unutmamalıyıq ki, onlar bizlər üçün, Vətən üçün, torpaqlarımız üçün həm psixoloji, həm də fizioloji baxımdan çətinlik çəkiblər. Onların bu anında bizdə xalq olaraq onlara dəstək olmalı, qazilərimizin və şəhid ailələrimizin yanlarında olmalıyıq".

Məsələ ilə bağlı **sosial ekspert, jurnalist Rövşən Rəsulov** da münasibət bildirib: "Etiraf edək ki, 44 günlük Vətən müharibəsindən sonra cəbhədə olan əsgərlərimiz, zabitlərimiz psixoloji sarsıntılara, əsəb gərginliklərinə məruz qalıblar və bu da təbii bir haldır ki, müharibə dəhşətləri bəzən insanları psixoloji cəhətdən çıxılmaz vəziyyətə salır. İstər dövlət, istərsə də qeyri-dövlət qurumları bu istiqamətdə fəaliyyət göstərirlər. Yəni psixoloqların, psixoterapevtlərin və nevroloqların fəaliyyət göstərməsi çox vacibdir. Bu fəaliyyət nəticəsində onlar cəbhədə vuruşan əsgərlərimiz və zabitlərimizə öz yardımlarını göstərirlər. Ancaq onu da qeyd edim ki, bu proseslər bəzən yetərincə həyata keçirilmir, ləngimələr baş verir. Çünki müəyyən qurumların bəzən bu məsələlərə biganə qalmalarının, işlərinə məsuliyyətsiz şəkildə yanaşmalarının da şahidi oluruq. Məhz bu cəhətdən də son zamanlarda inti-



har hallarının, intihara meyl etmə hadisələrinin baş verməsini istər sosial şəbəkələrdə, istərsə də media xəbərlərində oxuyuruq. Təbii ki, bu arzuolunmaz haldır. Və bu məsələdə dövlət və ya qeyri-dövlət qurumlarının üzərinə düşən işdən savayı biz vətəndaşların da üzərinə böyük bir məsuliyyət düşür.

Məsuliyyət ondan ibarətdir ki, bizim yaxın ətrafımızda dostlarımız və ya qohumlarımızda qazi və ya şəhid ailələri mövcuddur. Eləcə də, belə hallar yalnız qazilərlə bağlı olmur, eyni zamanda şəhid ailələrində də intihar hadisələri tez-tez baş verir. Onu da diqqətinizə çatdırmaq istəyərdim ki, həm şəhidlərimiz, həm də qazilərimiz cəbhədə bizlər üçün çarpışıblar, torpaqlarımızı mənfur düşmən işğalından azad ediblər. Biz vətəndaşlar da həm şəhid ailələrimizə, həm də qazilərimizə bu istiqamətdə diqqət və qayğı göstərməliyik. Dövlətimiz birmənalı olaraq onlara diqqət və qayğı göstərir və göstərəcək də. Lakin bilirsiniz, biz vətəndaşlar da üzərimizə düşən məsuliyyətləri dərk etməli, dövlətimizin sözügedən siyasətinə dəstəyimizi əsirgəməməliyik. Yalnız maddi deyil, həm də mənəvi dəstəyimizi davam etdirməliyik. Əgər vətəndaş onların yanında davamlı olarsa, problemlərinin həllində cüzi də olsa öz səmərəsini göstərə bilərsə, onda bu problemlərin də öhdəsindən uğurla çıxa bilərik".

***Ziya Hikmətoğlu***

# Erməni təcavüzkarlarının vurduğu ziyan aradan qaldırılır



***Dövlət başçısının Sərəncamı ilə Vətən müharibəsində zərər vurulmuş təhsil müəssisələrinin təmir-tikintisinə 7,0 (yeddi) milyon manat vəsait ayrılıb***

2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, infrastruktur obyektlərinə ziyan dəymiş və ya qəzalı vəziyyətə düşmüşdür. Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozmuş oldular. Belə ki, Azərbaycanın dinc əhalisini hədəfə alaraq, döyüş əməliyyatlarının aparılmadığı bölgələrimizə raket və ağır artilleriya zərbələri endirdilər. Ağcabədi, Bərdə, Tərtər, Naftalan, Gəncə, Mingəçevir kimi ərazilərimiz bundan ziyan çəkmiş oldu. Bildiyimiz kimi, oktyabrın 28-də düşmənin silahlı birləşmələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə hər birinin içərisində 72 ədəd 9N235 saylı, ümumilikdə 144 bombacıq olan ”Smerç” tipli əməliyyat-taktiki təyinatlı 9M525 gəlpəli böyük dağıdıcı qüvvəyə malik ballistik ”claster” tipli 2 ədəd raket zərbələrinin endirilməsi nəticəsində 5-i qadın olmaqla, 21 nəfər həlak oldu, 8-i uşaq, 15-i qadın olmaqla, 70 şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri aldılar. Bundan başqa, raket zərbələrinin təsirindən 30-dan artıq mülki infrastruktur obyektinə, dinc sakinlərə məxsus 20-dən artıq fərdi yaşayış evlərinə və 22 nəqliyyat vasitəsinə, xüsusilə, külli miqdarda ziyan dəydi. Gəncə şəhəri isə Ermənistan Silahlı Qüvvələri tərəfindən 5 dəfə ayrı-ayrı vaxtlarda zərbələrə məruz qaldı. Bu hücumlar nəticəsində hamısı mülki şəxslər olmaqla, 16 nəfər şəhid oldu, 55 nəfər isə yaralandı. Raket hücumlarından həyatını itirənlər və yaralananlar arasında azyaşlılar da var. Hücum nəticəsində şəhərin infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər çoxsaylı binalara, avtomobillərə ziyan dəydi. Gəncənin bombalanması və ya Gəncəyə raket hücumları heç zaman yadımızdan çıxmayan erməni terrorunun acı nəticələridir ki, bunu yaşamış olduq. Xocalı kimi soyqırımı yaşayan bir xalq kimi bu faciə də tariximizə yazıldı. İlk hücum 4 oktyabrda baş verdi və 1 mülki şəxs şəhid oldu, 30-dan çox mülki şəxsin yaralandı. Bu raket hücumu müharibənin getdiyi Dağlıq Qarabağ bölgəsindən kənara edilən ilk ciddi hücum kimi tariximizdə yer aldı.



İkinci raket hücumu isə 5 oktyabrda baş verdi və nəticədə 3 mülki şəxs yaralandı. Oktybarın 8-də, 11-də baş verən hücumlar da ağır nəticələri ilə yadda qaldı. Oktyabrın 11-də baş verən hücum nəticəsində 10 mülki şəxs şəhid oldu və 40-dan çox insan yaralandı. Mülki şəxsləri hədəf alan beşinci raket hücumu isə 17 oktyabrda baş verdi və hücum nəticəsində hamısı mülki şəxslər olmaqla, 16 nəfər şəhid oldu, 55 nəfər isə yaralandı. Təbii ki, hücumlar zamanı şəhərin infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər binalara, avtomobillərə də ziyan dəydi. Ermənistanın mülki şəxslərə raket hücumlarından həyatını itirənlər və yaralananlar arasında azyaşlılar da vardır. 44 günlük müharibə zamanı ölkənin 100-ə yaxın dinc sakini öldü, 400-dək adam yaralandı. Mülki insanlara və infrastruktura dəymiş ziyanın aradan qaldırılması istiqamətində dövlətimiz tərəfindən tədbirlər görülmüş və bu gün də həyata keçirilir.

Azərbaycan Prezidenti Cənab İlham Əliyev ”2020-ci il sentyabrın 27-dən başlayaraq, Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində zərər vurulmuş təhsil müəssisələrində təmir-tikinti işlərinin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamı həyata keçirilən tədbirlərin davamıdır. Sərəncama əsasən, 2020-ci il sentyabrın 27-dən başlayaraq, Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində dəymiş ziyanın aradan qaldırılması ilə bağlı Gəncə şəhəri, Ağdam, Goranboy və Tərtər rayonlarında zərər vurulmuş təhsil müəssisələrində təmir-tikinti işlərinin həyata keçirilməsinin təmin edilməsi üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 7,0 (yeddi) milyon manat vəsait ayrılıb. Əlbəttə ki, 44 günlük müharibə zamanı məktəblərimiz də ziyan çəkmişdir və bunların hamısını, əksəriyyətimiz iştirakçı olmasaq da izləmişik. Müharibə dövründə zərər çəkmiş məktəblər sırasında Tərtər rayonunun Düyərli kənd məktəbinin, Gəncə şəhəri 29 nömrəli tam orta məktəbinin və s. binalarına dəymiş ciddi ziyan erməni təcavüzünün nəticələridir ki, biz bunları yaşadıq.

Ötən əsrin 90-cı illərində erməni təcavüzü nəticəsində məktəblərimiz işğala, təcavüzə, dağıntıya məruz qalmışdır. 30 ildə Azərbaycanın işğal altında olan torpaqlarındakı təhsil obyektləri tamamilə dağıdılmış, yaxud yararsız hala düşmüşdür. Belə ki, Füzuli, Kəlbəcər, Cəbrayıl, Zəngilan, Xocalı, Xocavənd rayonlarının təhsil müəssisələri də dağıdılıb və viran qoyulub. Vurğulamaq yerinə düşər ki, təkcə Qubadlı rayonunda işğaldan əvvəl 61 ümumi təhsil məktəbi, o cümlədən, 33 tam orta, 16 ümumi orta, 12 ibtidai məktəb fəaliyyət göstərirdi. Rayonda 6000-ə qədər şagirdin təhsili ilə 1317 nəfər pedaqoji işçi məşğul olurdu. Qubadlıda uşaq-gənclər idman



məktəbi, Uşaq şahmat məktəbi, həmçinin, Uşaq və yeniyetmələrin yaradıcılıq, Texniki yaradıcılıq və Ekoloji Tərbiyə mərkəzləri, Texniki Peşə məktəbi fəaliyyət göstərirdi. Bütün bunlar erməni təcavüzkarlarının əməlləri nəticəsində viran qoyulmuşdur. Azərbaycan 44 günlük Vətən müharibəsində öz torpaqlarını işğaldan azad edərək, həmin ərazilərdə üçrəngli bayrağını dalğalandırdı. 30 illik həsrətə, ağrı və acıya son qoyuldu. Bu gün artıq Azərbaycan öz ərazilərində abadlıq-quruculuq işlərinə başlayıb. Şuşada məktəb tikilir, yollar çəkilir, məscidlərimiz bərpa olunur və yenidən qurulur.

***Zümrüd BAYRAMOVA***

# Məhərrəmlikdə ən vacib nələrə diqqət yetirilməli? - DİN XADİMİ AÇIQLADI



“Məhərrəm Hicri-Qəməri təqviminin birinci ayıdır. Söz hərfən ”haram edilmiş” mənasını bildirir. Bu ay qədim ərəblərin nəzərində mübarək bir ay kimi xarakterizə edilmiş və buna görə də bu ayda müharibə etməzlərmiş. Müsəlman mədəniyyətində isə məhərrəm ayı daha çox məhərrəmlik mərasiminin keçirilməsi ilə yadda qalıb. Çünki bu ayda Peyğəmbərimizin (s) nəvəsi İmam Hüseyn (ə) bir qrup əshabı ilə birlikdə Kərbəla çölündə qətliama məruz qalmışlar”. Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan İlahiyyat İnstitutunun müəllimi, din xadimi Hacı İbrahim Quliyev deyib.



Onun sözlərinə görə, sözügedən hadisə Məhərrəm ayının onuncu gününə təsadüf etdiyindən Aşura adlanmışdır: ”Aşura sözü də ”onuncu gün” deməkdir. Xalqımızın milli-mənəvi təfəkküründə də məhərrəmlik mərasimi, Aşura mədəniyyəti ilə bağlı çoxsaylı deyimlər, hadisə ilə əlaqədar yazılmış saysız mərsiyə və qəsidələr vardır. Matəm ayı kimi yaddaşlara həkk olunan məhərrəmlikdə Peyğəmbərimizə (ə) və onun əhlibeytinə (ə) ehtiram əlaməti olaraq müxtəlif mərasimlər, tədbir və konfranslar təşkil edilir, yeniyetmə və gənclərin maariflənməsi uğrunda işlər görülür”.

İbrahim Quliyev son olaraq da bunları qeyd edib: ”Ölkəmizdə bu il məhərrəm ayının 1-i avqustun 10-na, Aşura günü isə 19 avqusta təsadüf edəcəkdir”.

***Ayşən Vəli***

# Xaricdə təhsil alan 38 nəfərin diplomu tanınmayıb



İyul ayı üzrə xarici ali təhsil ixtisaslarının tanınması üçün müraciət edən 257 nəfərdən 219-u barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 38 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb. Təhsildə Keyfiyyət Təminatı Agentliyindən SİA-ya verilən məlumata görə, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 13, tədris dili üzrə bilik səviyyəsinin qənaətbəxş olmaması səbəbi ilə 12, təhsil ölkəsində tələb olunan minimal müddətin ödənilməməsi, həm də tədris dilinin qənaətbəxş olmaması səbəbi ilə 7, digər səbəblər üzrə 6 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Rusiya Federasiyasından 121, Ukraynadan 50, Türkiyə Respublikasından 46, Böyük Britaniya və Şimali İrlandiya Krallığından 12, Gürcüstandan 11, digər ölkələrdən isə 17 müraciətin olduğu müşahidə olunur.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, tibb üzrə 70, hüquqşünaslıq üzrə 31, iqtisadiyyat üzrə 16, biznesin idarə edilməsi üzrə 15, menecment üzrə 13 nəfər müraciətçi qeydə alınıb. Qeyd edək ki, iyul ayı ərzində sənədlərə ortalama baxılma müddəti 14 gün təşkil edib.

# Azərbaycan - Türkiyə - ən çətin anların sınağından çıxan QARDAŞLIQ BİRLİYİ!



*Məşhur Məmmədov, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü*

El arasında gözəl bir məsəl var: "Yaxşı dost dar gündə sınanar!". Bu deyimi, təkcə fərdi-insani münasibətlərə deyil, həmçinin xalqlar, dövlətlərarası münasibətlərə də şamil etmək olar. Yaxın keçmişdə erməni təcavüzkarları tərəfindən xalqımızın başına gətirilən müsibətlər danılmaz bir həqiqəti - Azərbaycan Türkiyə arasındakı qədim dostluq-qardaşlıq bağlarını bir daha yenilədi, bu bağların əbədi və sarsılmaz olduğunu göstərdi. Çünki onların kökləri çox dərindədir. Ulu Öndərimiz Heydər Əliyev deyirdi: "Türkiyə ilə Azərbaycanın əlaqələrinin qədim və zəngin tarixi var. Bu əlaqələr dostluq, qardaşlıq əlaqələridir. Həmin əlaqələrin mənbəyi bizim müştərək tarixi köklərimizdir, eyni kökə mənsubiyyətimiz, dilimizin, dinimizin, adət-ənənələrimizin eyni olmasıdır. Bütün bunlar əsrlər boyu bizi bərabərliyə, dostluğa, əməkdaşlığa çağırıbdır".

Həyatımızın hər sahəsində izi görünən, nəfəsi duyulan ümummilli liderimiz Heydər Əliyevin illər öncə müdrikcəsinə söylədiyi - "Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir" və böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", - kəlamları yaşadığımız günlərdə bir daha tarixiləşdi, toplumun bütün kəsimləri tərəfindən bəyənilən, uşaqdan-böyüyə hər kəsin dilinin əzbəri olan, istər sosial şəbəkələrdə, istərsə də cəmiyyət həyatının hər hansı bir sahəsində ən çox işlədilən ifadəyə çevrildi. Bu gün hər iki xalqın nümayəndələri müdrik siyasi xadim Heydər Əliyevin bu sözlərinə sadiqlik nümayiş etdirdilər. Bütün dünyaya bir daha məlum oldu ki, bu tarixi ifadə, sadəcə olaraq, sözdən ibarət deyildir. Bu tarixi kəlam iki dost və qardaş ölkənin yolunu daha da işıqlandırıb, hər iki dövlət yaxşı gündə də, pis gündə də bir-birinin yanındadır, hər iki dövlət eyni yolu yaşayır. Son illər baş verən hadisələr bir daha təsdiqlədi ki, iki qardaş ölkə arasındakı qırılmaz əlaqələr daha möhkəm və sarsılmazdır.

### Dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın ikinci dövlət yoxdur

Dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın ikinci dövlət yoxdur. İstər dövlət səviyyəsində, Azərbaycan- Türkiyə həmişə olduğu kimi, sevincdə də, kədərdə də bir yerdədir. Bu, tarixən də belə olub, belə də davam edir. Türkiyə taleyüklü məqamlarda hər zaman Azərbaycanın yanında olduğu kimi. 44 günlük Vətən müharibəsi zamanı yaşananlar və Qələbə Zəfərində iki qardaş birliyi - İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan - "Bir millət, iki dövlət" birliyini nümayiş etdirdi. Dövlət başçımız bu birlikdən qürur duyduğunu söyləyərək bildirmişdir ki, "Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq". Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan da bildirmişdir ki, "Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Dünya birliyində də, şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaqdır". Bəli, bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır.

Elə bu birliyin nəticəsidir ki, 2021-ci il iunun 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın işğalından azad olunan Şuşa şəhərinə tarixi səfəri və Qarabağın ürəyi olan Şuşada tarixi bəyannaməyə imza atıldı. Azərbaycan üçün çox önəmli bir tarixdə - Milli Qurtuluş Günündə, Qars müqaviləsindən yüz il sonra iki dost və qardaş ölkə arasında imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsini prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan imzaladılar.



Dövlətimizin başçımızın dediyi kimi: "Bu gün müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı özözlüyündə hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək işbirliyimizin təminatıdır".

Şuşa Bəyannaməsinin ardınca isə Azərbaycan, Pakistan və Türkiyə parlamentləri arasında Bakı Bəyannaməsi imzalandı ki, bu da hər üç ölkənin əməkdaşlığını nəzərdə tutan mühüm sənəddir. Bu sənəd müttəfiqlik münasibətlərinə yeni keyfiyyət qazandırmaqla yanaşı, strateji əməkdaşlığı daha da dərinləşdirir. Bu isə ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcək düşünülmüş, nəticəyə istiqamətlənmiş siyasi addımdır. Bu, həm də illər ərzində üç ölkənin bir-birinə olan de-fakto dəstəyinin de-yure müstəviyə keçməsi deməkdir. Bakı Bəyannaməsi, sadəcə, regional deyil, qlobal inteqrasiyanı özündə ehtiva edən əməkdaşlıq formatıdır. Bakı Bəyannaməsinin imzalanması həm Prezident İlham Əliyevin siyasi iradəsinin, qətiyyətinin və yürütdüyü çoxvektorlu xarici siyasətin Türkiyə və Pakistan kimi güclü dövlətlər tərəfindən dəstəklənməsi, həm də dövlətimizin başçısının müstəqil xarici siyasət yürütməsinin və müstəqil qərarqəbuletmə mexanizminin reallaşdırılmasıdır.

### Türkiyə ilə Azərbaycan bu fəlakətə də birlikdə son qoyacaq

Tarixin sınaqlarından şərəflə çıxan və dünyaya nümunə olan Türkiyə-Azərbaycan qardaşlığı Türkiyədə iyulun 28-dən başlayan yanğınlar ilə bağlı yaşanan fəlakətdə də bir daha özünü göstərdi. Prezident İlham Əliyev qardaş ölkənin rəhbərinə yanğınlar zamanı həyatını itirən vətəndaşlara görə başsağlığı verərək Azərbaycan hökumətinin və xalqının hər zaman olduğu kimi, bu gün də qardaş Türkiyə xalqı ilə həmrəy olduğunu söylədi. Həmçinin, Birinci vitse-prezident Mehriban xanım Əliyeva da Türkiyəyə dəstək olaraq sosial şəbəkədəki hesabında paylaşım edərək yazıb: "Türkiyə regionlarında baş vermiş dəhşətli yanğınların nəticələri barədə xəbərləri dərin kədər və təəssüf hissi ilə qarşıladım. Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Yaralıların tezliklə şəfa tapmasını arzulayıram. Türkiyə xalqının kədəri bizim kədərimizdir. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbr diləyirəm!"

Prezident İlham Əliyevin tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürmə qüvvələrinin əməkdaşlarından ibarət birinci qrup iyulun 30-da, ikinci qrup isə iyulun 31-də Türkiyəyə yola salınıb. Artıq üçüncü yanğınsöndürən təyyarəsi avqustun 5-də yola salınıb. Hazırda FHN-in yanğınsöndürmə qüvvələri yanğınların söndürülməsi əməliyyatlarını peşəkarlıqla davam etdirirlər. Bütün bunlar bir daha Azərbaycanın Türkiyə ilə əsl qardaş, etibarlı dost olduğunu göstəricisidir. Bu, bir daha sübut edir ki, istər xoş günlərdə, istərsə də çətin məqamlarda Azərbaycan hər zaman qardaş Türkiyənin yanındadır. Əminik ki, iki qardaş ölkənin birgə səyləri nəticəsində çox qısa zamanda yanğınların qarşısı alınacaq, Türkiyənin sevinci sevincimiz, kədəri kədərimizdir. Budur, çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti. Doğrudur, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbacanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz!

# "Ermənistan İrandan gözlədiyi nəticəni almayacaq"



"Ermənistan Baş naziri Nikol Paşinyanın İrana səfəri ümumiyyətlə İran-Ermənistan əlaqələrinin əsasını təşkil edir. Bildiyimiz kimi bu günə qədər bir qayda olaraq Azərbaycan və Ermənistan arasında əlaqələr düşmənçilik vəziyyətində olub və bu indi də belədir. Bunun fonunda İran hökuməti Ermənistanla münasibətləri daha yaxşı və yüksək tutub. Hətta, Ermənistanın istər prezident, istərsə də, baş nazirləri fərqi yoxdur, İrana səfər etdikdə, hər zaman İranın ən yuxarı siyasi eşalonunda, hətta dini lider səviyyəsində qəbul olunub. Onlar arasında əməkdaşlıq formalaşdırılıb". Bunları SİA-ya açıqlamasında politoloq Samir Hümbətov deyib.

Paşinyan Baş nazir təyin olunandan sonra ilk səfərini İrana edib. Bu haqda politoloq bunları deyib: "Paşinyanın İrana səfəri bir adət halı alıb. Niyə məhz Paşinyan Baş nazir təyin olunandan sonra ilk səfərini İrana edir? Burada çox maraqlı nüans var. Əslində bildiyimiz kimi dövlət və hökumət başçılarının ilk təyinatından sonra səfəri çox önəmlidir. Bu simvolik xarakter daşıdığı qədər önəmli xarakter də daşıyır. Misal üçün Azərbaycan Prezidenti hər zaman ilk səfərini qardaş Türkiyəyə edir. Eləcə də Türkiyə dövlət başçısı ilk səfərini Azərbaycana edir. Bu münasibətlərin inkişaf etməsindən, daha dərin strateji münasibətlərin formalaşmasından xəbər verir. Görünür ki, Ermənistanın da bu addımı atmağında əsas səbəb nə Rusiyanı qıcıqlandırmaqdır, nə də Qərb dövlətlərini qıcıqlandırmaqdır. İlk səfərini İranla başlayıb sonra digər ölkələrə səfərini davam etdirəcək. Bu birinci mənadan, məncə, belə qəbul oluna bilər.

İkinci nüans isə təbii ki, iki ölkə arasında əlaqələrin daha da genişləndirilməsi məsələsi ola bilər. Çünki Ermənistanla yeganə sərhədi olan müttəfiq ölkə İrandır. Ermənistan İranla ticarət əlaqələrini inkişaf etdirir. İranın qazını və neftini alır. Bu da Ermənistan üçün olduqca əhəmiyyətlidir. Mən hesab edirəm ki, Paşinyanın İrana səfərinin əsas məqsədlərindən biri də budur. Digər tərəfdən İran baxmayaraq Azərbaycanla Ermənistan arasında münasibətlər gərgindir, Ermənistana dəstək verir. İstər ikinci Qarabağ müharibəsində, istərsə ondan əvvəlki dövrlərdə öz dəstəyini Ermənistana göstərib. Hətta bu yaxınlarda İran səfirinin Azərbaycanla sərhəddə gəlib orada müşahidə aparması da, onu göstərir ki, İranın Ermənistana qarşı marağı böyükdür. Bu da onu göstərir ki, hazırda bölgədə Ermənistan üçün ona dəstək etməsi baxımdan əsas strateji əhəmiyyət daşıyan ölkə İrandır".

İrana səfər zamanı Paşinyanın Qarabağ haqqında müzakirə aparacağı istisna edilmir. Samir Hümbətov bu haqda fikirlərini belə izah edib: "Qaldı ki, Qarabağ məsələsinin müzakirəsinə, təbii ki, istər Ermənistan, istərsə də Azərbaycan dövlət və hökumət başçılarının istənilən bir ölkəyə səfərində, beynəlxalq təşkilatlarla görüşlərində mütləq və mütləq Qarabağ məsələsi müzakirə olunur. İndi məsələ burasındadır ki, İran burda hansı mövqeni tutacaq. İran bizə bir söz deyir, Ermənistana bir söz deyir. Amma görünən odur ki, İran yenə də Ermənistana öz loyal münasibətini göstərəcək. Amma Paşinyan nə dərəcədə İranla aparacağı danışıqlarda uğur qazanacaq və ya o danışıqların nəticəsi nə qədər faydalı olacaq onu demək çətindir. Çünki belə götürəndə İranın Dağlıq Qarabağ məsələsinin nizamlanması və həlli prosesində hansısa ciddi addım atdığını demək olmaz. Sadəcə İran Ermənistana dəstək ola bilər və ya hansısa bir bəyanat verə bilər. Tərəfləri sülhə çağıra bilər. İranın ancaq bu addımları atmasını gözləyə bilərik. Mən hesab edirəm ki, Ermənistan İrandan gözlədiyi nəticəni almayacaq. Hətta İran onun xeyrinə də nəsə desə, heç bir xeyri olmayacaq. Hesab edirəm ki, Paşinyanın İrana səfərini əsas məqsədi iqtisadi və ticarət əlaqələri genişləndirmək olacaq. Bir də qonşuluq əlaqələrini genişləndirmək olacaq. Bundan artığını gözləmək olmaz".

***Turqay Musayev***

# "Azərbaycan kimi partnyoru itirmək olmaz"



**AMİP siyasi şurasının üzvü Əli Orucov SİA-ya müsahibə verib. Müsahibəni sizə təqdim edirik:**

**- Rusiya Liberal Demokrat Partiyasının (LDP) lideri Vladimir Jirinovski Azərbaycana və Azərbaycan xalqına qarşı qərəzli mövqedən çıxış edib. Sizcə, hələ cənab Prezidentin Rusiya səfərindən yenicə qayıtdığı və sərhəddə gərginliyin olduğu bir vaxtda bu sərsəm bəyanatları səsləndirmək nə qədər düzgündür və nəyə hesablanıb?**

- Jirinovskinin bəyanatından sonra təəssüf ki, Azərbaycanda bu məsələyə o qədər də ciddi yanaşmadılar. Bəziləri onu sağlam düşüncəsi olmayan, bəziləri oyuncaq, kimisi də ağılsız adam kimi qələmə verməklə bir növ məsələnin üstündən keçməyə çalışırdılar. Onu ağılsız, oyuncaq adlandırsalar da mən belə düşünmürəm. Jirinovski kifayət qədər təcrübəli siyasətçidir. Jirinovski Rusiya Dumasında Fraksiya rəhbəridir və geniş deputat qrupu var. 40-dan çox onun Fraksiyasının parlamentdə üzvü var. Eyni zamanda dəfələrlə prezdentliyə namizəd olub, hüquq elmlər namizədir və s. Bütün bunlar göstərir ki, Jirinovskiyə qeyri-ciddi yanaşmaq, dediklərini görməzdən gəlmək olmaz. Əksinə bu məsələnin dərinliyinə gedib analiz etmək, nəticələrini çıxarmaq və adekvat cavabını vermək lazımdır. Təəssüf ki, bu adekvat cavabı da görmədik. Jirinovski nədən indi belə bəyanat verir. Bilirsiniz ki son vaxtlar Azərbaycana basqılar daha çox artıb. Yəni 44 günlük zəfərimizin ardından istər Rusiya, istər də Qərbin basqıları var. Doğrudur Rusiya özünü Azərbaycana strateji müttəfiq, dost kimi göstərir. Amma nəzərə almaq lazımdır ki, Rusiya imperialist siyasətini davam etdirir. Rusiyanın imperialist siyasəti nədir? Kökə və qamçı. Bir tərəfdən özünü dost kimi, Azərbaycana strateji müttəfiq kimi göstərir. Digər tərəfdən sistem müxalifəti olan Jirinovskilərin, yaxud digər qrupların və deputatların dili ilə Azərbaycanı təhdid edir. Nədən təhdid edir? Bunun səbəbi mənim fikrimcə, 44 günlük savaşdan sonra imzalanan bəyanatda göstərilən maddələrdən biri də Naxçıvanla Azərbaycanı birləşdirən o dəhlizin açılma məsələsidir. Amma indiyədək açılmayıb və Azərbaycan da bu məsələdə israr edir. Bu bir məsələ. İkinci bir məsələ cənab Prezidentin dəfələrlə Rusiyadan S-400 raketlərinin İrəvanın əlinə necə keçməsi ilə bağlı sualı hələ də cavabsız qalıb. Eyni zamanda rus sülhməramlılarının Qarabağdakı fəaliyyəti Azərbaycanı qane eləmir. Bu rəsmi şəkildə dəfələrlə səsləndirilib. Çünki orada ermənilərin əl-qol açmasına geniş imkanlar verilir. Sərhədlərimiz bizim icazəmiz olmadan, razılaşdırılmadan ayrı-ayrı adamlar tərəfdən pozulur. Gediş-gəliş sərbəstliyi verilir. Bütün bunların hamısı Azərbaycanda narahatlıq doğurur. Mən onu da düşünürəm ki, son zamanlar Pakistan, Türkiyə və Azərbaycan arasında əlaqələrin dərinləşməsi Rusiyanı qıcıqlandırır. Həmçinin cənab Prezdentin qətiyyətli çıxışları və duruşu səbəbindən Rusiya Jirinovskinin əli ilə bu cür təhdidlər yağdırır.

**- Rusiyanın özündə Jirinovskiyə münasibət necədir?**

- Populist siyasətçidir. Buna görə də onun fikirlərinə ciddi və qeyri-ciddi yanaşanlar var. Tərəfdarları var. Yenə deyirəm, Jirinovski sıradan bir adam deyil, onun partiyası Rusiya partiyasında təmsil olunur. Rusiyada da elə bir demokratik ab-hava yoxdur ki, sistemin və hakimiyyətin icazəsi olmadan belə bir böyük partiya yaransın. Deməli, burada hardasa açıq ya gizli Kremlin əli və dili var. Sadəcə bunu Jirinovski kimi populist və avanturist siyasətçinin əli ilə verirlər. Amma biz buna sərt reaksiya göstərsək, bir daha belə bir addım atmadan öncə düşünüb-daşınmalı olacaqlar. Deyəcəklər ki, yox, Azərbaycanda belə məsələlərə ciddi yanaşırlar. Azərbaycan kimi bir strateji önəmi olan partnyoru itirmək olmaz.

**- Paşinyan Zəngəzur dəhlizi ilə bağlı çıxış edərkən deyib ki, dəhliz açılsa da, burada erməni gömrüyü olacaq və azərbaycanlılar erməni gömrüyündən keçməklə dəhlizdən istifadə edə bilərlər. Sizcə, bu, nə dərəcədə məntiqli bir çıxışdır?**

- Bu gün Rusiya rəsmiləri də açıq şəkildə bildirirlər ki, Azərbaycanla Ermənistan arasındakı hazırda ən əsas məsələ dəhliz məsələsidir. Bu bəyanatın əsas məsələsidir. Zəngəzur dəhlizi açılmalıdır və ona Ermənistan deyil, Rusiya Federal Təhlükəsizlik Təşkilatı nəzarət etməlidir. Ermənistan bu gün bunu öz istəyinə uyğunlaşdırma istəyirsə, bu mümkün deyil. Çünki Rusiya açıq şəkildə göstərib ki, heç kim bu bəyanatı poza bilməz. Kimdə pozmağa çalışsa, bu onun üçün baha başa gələcək. Buna görə də, mən düşünürəm ki, Ermənistan belə bir addım ata bilsin. Sadəcə olaraq, daha böyük güzəştlər qoparmaq istəyir. Daha əlverişli fürsətlər əldə etmək istəyirlər. Buna görə də, müəyyən təxribat əməllərinə yol verirlər. Bu yaxınlarda Paşinyan Rusiyaya səfər edəcək. Yəqin ki, bu məsələlər daha detallı şəkildə bir də araşdırılacaq və müzakirə ediləcəkdir. Ermənistanın başqa yolu yoxdur. Cənab Prezidentin də dediyi kimi bu dəhliz onlar istəsələr-istəməsələr də açılacaq. Bu həm də Rusiyanın maraqlarına uyğundur. Çünki Şərqi Avropa ilə birləşdirilən bu dəhliz Rusiyanın nəzarəti altında olacaq. Rusiya bu fürsəti əlindən qaçırmaq istəməz.

**- Rusiyalı politoloq Yevgeni Mixaylovun Ermənistanın atəşkəsi pozmağının arxasında ABŞ və Fransa dayanır ifadəsi ilə siz razılaşırsınızmı?**

- Burada maraqlı qüvvələr ola bilər. Çünki ordusu darmadağın olmuş bir ölkə belə riskli addımlar ata bilməz. Deməli bunları cəsarətləndirən qüvvələr var. Bu qüvvələr də özünü açıq şəkildə büruzə verir. Məsələn, Fransa Ermənistanı birmənalı olaraq müdafiə edir. Baxmayaraq ki, bu ölkə Minsk qrupunun üzvü olub. Halbuki bu qurum münaqişənin həllində birbaşa vasitəçi və bitərəf olmalı idi. Amma biz Minsk qrupunun bitərəfliyini nə 44 günlük müharibədə, nə də ki, ondan sonrakı dövrdə görmədik. Eyni zamanda burada Ermənistanın məqsədi Rusiyanı münaqişəyə cəlb etmək ola bilər. Buna müharibə dövründə cəhd etdilər ki, Moskva onların yerinə Azərbaycanla vuruşsun. Ancaq bu alınmadı. İndi də KTMT və Rusiyanı cəlb etmək istəyirlər. Hətta Paşinyan açıq şəkildə dedi ki, əgər KTMT və Rusiya olmasa, biz Amerikanı və Fransanı dəvət edəcəyik. Bütün bunlar göstərir ki, burada üçüncü qüvvələrin marağı ola bilər.

***Turqay Musayev***

# Ermənistan quruyan Aral dənizinə bənzədilir





### Bu, iddia deyil, statistik sübutlardır

Ermənistanla sərhədyanı bölgələrdə düşmən tərəfinin təxribatları nəticəsində baş verən kiçik toqquşmaları çıxarsaq, lokam müharibə şəraiti geriqə qalıb. Düzdür, bu gün İrəvan Bakının sülh təşəbbüslərinə rəğmən yenə də aşkar inadkarlıq mövqeyini ortaya qoyur, hansısa uzaq siyasi dairələrə ümidini bağlayır, vəziyyətdən minimal olsa da, öz səmərəsini qazanaraq çıxacağını hesab edir. Ancaq digər tərəfdən, belə davam edəcəyi halda vəziyyətin yenidən gərginləşməyəcəyinə kimsə zəmanət verə bilməz.

### Bəs nə baş verir?

Başqa yandan, bu gün Ermənistanın sosial-iqtisadi vəziyyəti tükdən asılıdır və yardımlar sayəsində hələ ki, ayaqda qala bilir, fəqət belə ayaqdaqalma situasiyasının nə zamana qədər mövcud olacağı da bəri başdan məlumdur. Misal üçün, məlumdur ki, ölkə sürətlə boşalır, xalq daha qorxu, təlaş, aclıq, sabaha inamsızlıq şəraitində yaşabağı bacarmır. Əbəs deyil ki, bu yaxınlarda erməni publisistlərindən biri ölkəni quruyan Aral dənizinə bənzədib. Məhz bu bənzətmə necə deyərlər, lap yerinə düşüb. Bəs nə baş verir?

Bir çox yaşayış məntəqələri, vilayətlər və rayon mərkəzləri, həmçinin, ucqar kəndlər demək olar ki, "qocalar evinə" dönüb - bu məntəqələrdə demək olar ki, gənc nəslin nümayəndələri yoxdur, qalmayıb. Yalnız ümidləri puç olmuş qoca nəslin nümayəndələri özlərinin son vaxtlarını yaşayırlar və heç kimin yadlarına belə düşmürlər. Daha bir misal - insanlar görüşəndə acı zarafat edirlər ki, əvvəllər toylarda, şənliklərdə mütəmadi olaraq görüşürdülərsə, indi bu görüşlər tez-tez yas yerlərində baş tutur.

### Ali təhsil müəssisələrində 15 min vakant yer qalıb - gənclik isə yoxdur!

Ölkənin sürətli boşalmasına sübut kimi, ali təhsil müəssisələrinin də boş qalmasını göstərə bilərik. Son statistik məlumatlara görə, bu il Ermənistanda 15 min yer sadəcə vakant olaraq qalıb. Və məsələ yalnız onda deyil ki, erməni gəncliyinin ali təhsil almaq maraqları aşağı səviyyədədir, məsələ həm də gəncliyin olmamasındadır. Bu faktora olan təsirlər isə bir neçə dənədir. İrimiqyaslı miqrasiyanı göstərərsək nəticəyə gələ bilərik ki, erməni gəncliyi ölkələrinin gələcəyini ümumiyyətlə görmürlər.

Ermənistanda ölüm sayı doğum sayını sürətlə üstələyir və əgər gənclik yoxdursa, faktiki olaraq doğumlar da get-gedə aşağı düşəcək. Ən əsas faktor isə müharibədir. Hələ 2020-ci ilin payızına qədər erməni ictimai rəyində Azərbaycanla yeni müharibənin başlaması qorxusu çox güclü idi. Sağlam düşüncəli insanlar çox gözəl anlayırdılar ki, bugünkü Azərbaycan heç də 90-cı illərin içdən parçalanan, vətəndaş qarşıdurmaları yaşayan, zəifləyən Azərbaycanı deyil.

### Paşinyan-Tonoyan cütlüyü erməni gənclərini, sözün əsl mənasında, "ət maşınının" ağzına atmışdılar

Və bu savaş başladı, indi isə Ermənistan üçün nəyinsə hamar olacağını demək, sadəcə, iztehza doğurar. Məhz bunu sadə vətəndaşlar əvvəlcədən bilirdilər, anlayırdılar - həmin vətəndaşlar ki, övladları çağırışçı yaşında idilər. Bunu anlamayanlar isə Ermənistanda hakimiyyətə gəlmiş baş nazir Paşinyan, keçmiş müdafiə naziri Tonoyan və digər yüksək rütbəli dövlət məmurları idilər.

Biri Şuşada sərxoş halda rəqs edir, ağzının suyunu mikrafona dağıdaraq təxribatçı bəyanatlar səsləndirir, digəri isə ABŞ-da erməni diasporunun qarşısında yeni Azərbaycan ərazilərinin zəbt olunacağı bəyanatlarını səsləndirirdi.

Nəticədə İrəvan axır ki, müharibənin başlamasına səbəb oldu və şəxsi heyətində 8 000 canlı qüvvəsini, demək olar ki, bütün hərbi texnikasını itirərək bəlkə də dünyanın ən ağır məğlubiyyətlər yaşayan ölkələri sırasında ilk yerini tutdu. Ölənləri əksər çoxluğu isə erməni gəncləri idi ki, Paşinyan-Tonoyan cütlüyü onları sözün əsl mənasında "ət maşınının" ağzına atmışdılar.

Son 6 ayda təkcə Rusiya vətəndaşlığına 22 min erməni keçib, ölkəni tərk edənlərin ümumi sayı isə 100 min nəfərdir!

İndi müharibə geridə qalıb və İrəvan kapitulyasiya sənədinə imza atıb. Azad edilmiş Qarabağ əsl sahibinə geri qayıdıb. Lakin Ermənistanda hələ də elə dairələr var ki, onlar "hərbi revanş" barədə fikirlər yürüdürlər. Təbii ki, bunu erməni gəncliyinin valideynləri də görürlər. Görürlər və anlayırlar ki, övladları yenidən "ət maşınının" ağzına atıla bilər. Ona görə də əllərinə düşən hər imkanlarında ya onların ordudan yayınmalarına, ya da ölkədən çıxarılmalarına çalışırlar.

Təkcə 2021-ci ilin konkret statistik rəqəmlərinə baxaq. Cari ilin ilk yarımilliyində daha çox Ermənistan vətəndaşı ölkə hüdudlarını tərk edərək, yaşayış yerlərini dəyişiblər. Qeyd olunan müddət ərzində təkcə Rusiya vətəndaşlığına 22 min erməni keçib və bu da ötən ilin analoji göstəricisini 7,8 min nəfər, yaxud 1,6 dəfə üstələyir. Bunlar isə yalnız vətəndaşlıq alanlardırlar. Ümumilikdə isə ölkəni tərk edənlərin sayı 100 min nəfərə çatıb.

### Bu gün orduya çağırışçıların sayı kvotanı təmin etmirsə...

Əgər bu gün Ermənistanın ali təhsil müəssisələrində 15 min yer boş qalıbsa, bunun səbəbi yuxarıda qeyd edilən statistik rəqəmlərdir. Və ya bu gün orduya çağırışçıların sayı kvotanı təmin etmirsə, həmin məsələ də sözügedən statistikanın real nəticələridir. Bu da boş sözlər, yaxud iddialar deyil.

Çünki erməni zbitləri etiraf edirlər ki, Ermənistanın öz hüdudlarını qorumaq mümkünlüyü yox səviyyəsindədir. Əlbəttə ki, belə də olmalı idi. Təsəvvürünüzə gətirin, pandemiya şəraitində sərhədlərin çox kiçik qığılcımla açılıb-bağlanması nəticəsində Ermənistanı 100 000 nəfər insan tərk etdi. Ona görə də, hansısa erməni publisistinin ölkəsini - Ermənistanı quruyan Aral dənizi ilə eyniləşdirməsi tam doğru təsəvvürdür.

***Rövşən RƏSULOV***

# Rus politoloq: İrəvanın məqsədi təxribatlarla Bakını sərhəd münaqişələrinə çəkməkdir



**İqor Korotçenko: "İrəvanın provakativ oyununa KTMT və Rusiyanı cəlb etmək mümkün deyilsə, Avropa İttifaqı və xüsusən Fransa Ermənistanın tərəfində olacaq"**

Son günlərdə Ermənistanda mühüm hadisələr baş verir. Vətəndaş Sazişi fraksiyasından namizədliyi irəli sürülən Nikol Paşinyan avqustun 2-də Ermənistan Respublikasının Baş naziri, general-mayor Arşak Karapetyan isə müdafiə naziri vəzifəsinə təyin edildi. Bəs köhnə-yeni baş nazir Nikol Paşinyan yaxın gələcəkdə özünü necə aparacaq və o, bədnam Arşak Karapetyanı ölkənin müdafiə naziri postuna niyə təyin etdi?

Tanınmış politoloq, "Milli Müdafiə" jurnalının baş redaktoru, hərbi ekspert İqor Korotçenko "Caliber" analitik mərkəzinə müsahibəsində bu məsələləri şərh edib. Politoloqun fikirlərini oxucularımıza təqdim edirik.

**"Ermənistanın razılaşmaları yerinə yetirmək ehtimalı çox azdır"**

İqor Korotçenko hesab edir ki, Nikol Paşinyanın bundan sonrakı hərəkətlərinin məntiqi siyasi həyatda qalmaq və hakimiyyəti qorumaq, Ermənistanda baş verəcək ən vacib iqtisadi, maliyyə və siyasi proseslərə şəxsi nəzarət istəyi ilə müəyyən ediləcək: "Açıq şəkildə etiraf etməliyik ki, Paşinyanın Ermənistanın 10 Noyabr 2020-ci il tarixli üçtərəfli bəyannaməsini imzaladıqdan sonra üzərinə götürdüyü öhdəlikləri, habelə 2021-ci ilin yanvarında Moskvada keçirilən görüşdə Rusiya, Azərbaycan və Ermənistan liderləri tərəfindən əldə olunan razılaşmaları yerinə yetirməyə başlayacağı gözləntiləri azdır. Biz görürük ki, bu gün Azərbaycanı sərhəd münaqişələrinə çəkmək üçün hərbi təxribatların təşkili taktikası Ermənistan siyasətinin əsas məqsədidir, çünki Azərbaycanın Qarabağ bölgəsində son onilliklərdə mövcud olmuş separatçı quruluşun qalıqlarını qanuniləşdirməyə çalışmaq üçün bir kart oynanır. Və bu gün erməni diasporaları ilə Ermənistan hökuməti arasındakı bu böyük oyun davam edir. Buraya KTMT və Rusiyanı cəlb etmək mümkün deyilsə, Avropa İttifaqı və xüsusən, Fransa Ermənistanın tərəfində olacaq".

**"Əsas məqsəd ordunun başında Paşinyana sadiq adamın olmasıdır"**

Həmsöhbətimizin dediyinə görə, Arşak Karapetyanın Ermənistanın müdafiə naziri vəzifəsinə təyin olunması, açıq şəkildə Paşinyanın hərbi idarənin başında şəxsən özünə sadiq bir adamın olması istəyi ilə bağlıdır: "Bildiyiniz kimi, əvvəlki illərdə Karapetyan Paşinyanın köməkçisi işləyib və bu şəxsin vaxtilə Ermənistan hərbi kəşfiyyatına rəhbərlik etdiyini nəzərə almaq lazımdır, o cümlədən, o, postsovet məkanında və KTMT-nin qərargahında yaxşı əlaqələrə malikdir. Aydındır ki, Paşinyan ümid edir ki, bu şəxs Ermənistanın postsovet məkanında ona rəğbət bəsləyən qüvvələrin dəstəyi ilə reallaşdırılmasını gözlədiyi siyasəti həyata keçirməkdə də faydalı olacaq. Ancaq əsas məntiq Paşinyanın sonrakı addımlarına və hərəkətlərinə sadiqliklərini təmin etmək baxımından Ermənistanın silahlı qüvvələrinə nəzarətdir".

**"Ermənistan Rusiyanın təzyiqi ilə kommunikasiyaları aça bilər"**

Ekspert hesab edir ki, Ermənistanın sülh müqaviləsi imzalamağa və Azərbaycanla münasibətləri normallaşdırmağa razılıq vermə ehtimalı çox azdır, çünki əvvəlki aylar bunun əksini göstərir - İrəvanın vəziyyəti gərginləşdirmək və hər hansı sülh müqavilələrini pozmaq, həmçinin delimitasiya və Azərbaycanla sərhədin demarkasiyasını ləngitmək istəyi aydın görünür. Politoloqun fikrincə, ən yaxşı halda, Rusiyanın təzyiqləri altında Ermənistanın nəqliyyat kommunikasiyalarının qarşısını almaq cəhdinin dayandırılacağını, bölgə ölkələri ilə normal ticarət və iqtisadi əlaqələr qurmaq üçün bəzi tədbirlər görəcəyini görəcəyik.

"Ancaq yenə də bunun şansı son dərəcə aşağıdır. Yaşayaq görək, özünü Ermənistanın yeni Baş naziri olaraq qanuniləşdirən Paşinyan, 2020 və 2021-ci illərdə Moskvada üç ölkə liderlərinin üçtərəfli görüşləri formatında əldə edilən razılaşmaların icrasını praktiki olaraq necə davam etdirəcək,- İqor Korotçenko fikrini yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Bakı Bəyannaməsi - qardaşlıq, əməkdaşlıq və birliyin zirvəsi



*MEHDİ BALABƏYOV, YAP Şabran rayon təşilatının sədri*

Müdrik insanların dəfələrlə söylədiyi "Siyasətin ədalətli, siyasətçinin adil olması onu dəstəkləyənlərin sırasına baxanda məlum olur" - ifadəsi bu gün Azərbaycanda öz təsdiqini tapır. Çünki bizim dövlətin yeritdiyi siyasət də, dövlət başçımızın siyasi fəaliyyəti də dünyanın hər yerində, işğalçı Ermənistan istisna olmaqla, hamı tərəfindən dəstəklənir. Sevindirici haldır ki, bu gün Azərbaycan qalib ölkə kimi dünya dövlətləri tərəfindən qəbul edilməklə yanaşı, həmçinin, qonşu dövlətlərlə monolit birliyə malikdir. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət, diplomatik siyasətinin reallığıdır. Məhz İkinci Vətən Müharibəsinin 44 gün ərzində 30 il işğalçı Ermənistandan azad olunan torpaqlarımız müzəffər və yenilməz ordumuzun şücaəti, xalqın dövlət başçısına olan birmənalı dəstəyi və onun ətrafında monolit birliyi, Türkiyə kimi güclü qardaş dövlətin Azərbaycanın yanında olması və onun atdığı istənilən addımı müdafiə etməsi, həmçinin dost Pakistan dövlətinin ölkəmizə kömək etməyə hazır olduğunu bəyan etməsi, həmçinin qonşu dövlətlər - Rusiya, İran və Gürcüstanın və digər tərəfdaş dövlətlərin haqq işimizi müdafiə etməsi, həmçinin, bir çox dövlətlər, beynəlxalq təşkilatlar Ali Baş Komandanımız, Prezident İlham Əliyevin son 18 illik Prezidentlik fəaliyyəti dövründə həyata keçirilən xarici siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur.

İyulun 27-də Azərbaycan Respublikası Milli Məclisi, Türkiyə Böyük Millət Məclisi və Pakistan İslam Respublikası Milli Assambleyasının sədrləri arasında imzalanan üçtərəfli Bakı Bəyannaməsi bu üç dövlətlər arasında mövcud olan münasibətlərin və qarşılıqlı faydalı əməkdaşlığın beynəlxalq münasibətlər sistemində özünəməxsus yeri və rolu olmasının göstəricisidir. Xalqlarımızın hər zaman bir-birinə bağlı olduqlarını və öz dəstəklərini əsirgəməyiblər. Vətən müharibəsi zamanı Pakistan və Türkiyənin Azərbaycana göstərdiyi mənəvi-siyasi dəstək xalqımız tərəfindən çox böyük rəğbət və sevgi ilə qarşılanıb, şəhər və kəndlərimizdə Azərbaycan bayrağı ilə yanaşı, Pakistan və Türkiyə bayraqları qürurla dalğalandırılıb. Məhz bu münasibətlərin daha da genişləndirilməsinin göstəricisidir ki, Azərbaycan Respublikasının Milli Məclisi parlamentlərarası üçtərəfli əməkdaşlıq formatının təsis edilməsi təşəbbüsünü irəli sürərək, üçtərəfli Bakı Bəyannaməsi imzalanıb.

**Bakı Bəyannaməsi - "Bir millət, iki dövlət" tezisinə əsaslanan reallığın təcəssümüdür**

Bakı Bəyannaməsi dünyada analoqu olmayan qardaşlığın, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları tarixin ən dar məqamlarında, ən çətin günlərində belə öz sözünü deyir. Belə ki, Azərbaycan dövləti bu çətin günlərdə Türkiyənin yanındadır və meşə yanğınlarının qarşısının alınmasına öz yardımını edir. Yanğından dərhal sonra Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana baş vermiş faciədən dərin kədər hissi keçirdiyini, Azərbaycan hökuməti və xalqının hər zaman olduğu kimi, bu gün də qardaş Türkiyə xalqı ilə həmrəy olduğunu vurğuladı.

Göründüyü kimi, Azərbaycan və Türkiyə həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanındadır. Həmçinin, Pakistan dövlətinin 44 günlük müharibə dövründə Azərbaycanın yanında olması bir daha Azərbaycana dost, qardaşlıq birliyinin nümayişidir. Bu əlaqələrin tarixi azərbaycanlı xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin adı ilə birbaşa bağlıdır. XX əsrin əvvəllərində Pakistan ərazisi Britaniya müstəmləkəsi olanda yerli əhali arasında kütləvi virus yayılmışdı. İnsanlar bu ağır xəstəlikdən kütləvi şəkildə dünyasını dəyişirdilər. Həmin vaxt Hacı Zeynalabdin Tağıyev şəxsi vəsaiti ilə 300 min ampul peyvənd alıb Pakistana göndərir. Bununla da pandemiyanın qarşısı alınır. Pakistan xalqı bu gün də həmin yaxşılığı unutmur.

Bir sözlə, bütün dünyaya nümunə olan və daim güclənən Azərbaycan-Türkiyə-Pakistan arasında imzalana üçtərəfli Bakı Bəyannaməsi ölkələrimiz arasında dostluq, qardaşlıq və əməkdaşlıq münasibətləri dayanmadan inkişaf edəcəyinə müsbət təsir göstərəcək, bundan sonra da ölkələrimiz müxtəlif sahələrdə işbirliyini uğurla davam etdirməklə yeni tarixi nailiyyətlərin altına imza atacaqlar.

## Rusiyalı hərbi-siyasi ekspert: "Paşinyan Rusiyanı Azərbaycanla münaqişəyə cəlb etməyə cəhd göstərir"

Ermənistanın sərhədlərin demarkasiyası və delimitasiyası prosesini uzatması ətrafında bir sıra iddialar, fikirlər və mülahizələr səsləndirilir. Lakin hər şeyə rəğmən, İrəvanın bu məsələdəki inadkarlı mövqeyi Ermənistan üçün yeni risklər yaratmaqdadır. Əbəs deyil ki, bir sıra tanınmış politoloqlar, hərbi-siyasi ekspertlər və şərhçilər də sözügedən məsələnin həssas məqamlarını izah edir, müxtəlif proqnozlar irəli sürürlər.



SİA xəbər verir ki, news.ru-ya maraqlı izahlardan birini də Rusiyanın hərbi-siyasi politoloqu Aleksandr Perençiyev edib. Onun sözlərinə görə, Ermənistanın sərhədlərin demarkasiyası məsələsini uzatmaq cəhdləri bu məsələnin həlli müqabilində revanşistlərin ümidlərini tamamilə puç edir.

Ekspert hesab edir ki, Ermənistan sərhəd bölgələrində atəşlər açmaqla Azərbaycanın əsas hissəsini Naxçıvanla bağlayacaq Zəngəzur dəhlizinin yaradılmasına maneələr törədir.

Aleksandr Perenciyev: "Həm Azərbaycan, həm də Türkiyə bizim strateji partnyorlarımızdır"

Halbuki, üçtərəfli razılaşma əsasında regionun inkişafı üçün əhəmiyyətli olan kommunikasiyaların blokadadan çıxarılması və tam iqtisadi inkişafın başlanğıcı nəzərdə tutulub. Perençiyevə görə, erməni tərəfi, daha dəqiq desək, baş nazir Nikol Paşinyan həm ölkəsi, həm də özü üçün yeni risklər qazanır.

"Nikol Paşinyan faktiki olaraq Rusiyanı Azərbaycanla münaqişəyə cəlb etməyə cəhd göstərir. Bu isə bizə lazım deyil, çünki həm Azərbaycan, həm də Türkiyə bizim strateji partnyorlarımızdır. Biz, eyni zamanda Azərbaycanla MDB çərçivəsində əməkdaşlıq fəaliyyəti göstəririk", Rusiyalı hərbi-siyasi politoloq bildirib.

***Rövşən RƏSULOV***

# Feminist araqatanların qrant-şouları necə ifşa olundu?

Bir neçə gündür ki, ölkədə yenidən araqatanlıqla məşğul olmağa cəhd göstərən bir qrup qrant şoumenləri bəlli bir cinayət hadisəsindən sui-istifadə etməklə sabitliyi pozmağa yönəlik planlarını icra etməyə çalışıblar. Polis idarəsinə hücum çəkərək, qanunları pozan və ictimai asayişin pozulmasına yönələn hərəkətləri ilə diqqəti öz tərəflərinə çəkməyə səy göstərən dırnaqarası feministlər dəstəsi, əslində, yenidən sağlam düşüncəli insanların haqlı, sərt qınaqları ilə rastlaşıblar.




Lakin bu arada bir daha sübut olunub ki, guya qadınların hüquqlarının müdafiəsi ilə məşğul olduqlarını nümayiş etdirən və bu vasitə ilə milli dəyərlərimi ayaqlar altına atmağa çalışan bənzər qruplar əslində Qərbin onlara ayırdığı qrantlar müqabilində sabitliyi pozmağa çalışırlar. Buna isə aşkar dəlil və sübut var.

Azərbaycan polisini ictimai qınaq obyektinə çevirməyə cəhdlər göstərənlərin ifşası isə bir daha sübut edir ki, onlar üçün ümumiyyətlə heç bir dəyərlər, mənəviyyat faktorları mövcud olmayıb və yoxdur. SİA olaraq diqqətinizə təqdim etdiyimiz səsyazısından da buna əmin ola bilərsiniz. Hər zamankı kimi Nərmin, Gülnar, Günel triosu iradəsi zəif qadınları torlarına salır, pulla şirnikləşdirir, üzərindən siyasi oyunbazlıqlar qurur, ölkədən qaçmasına nail olur, bütün bunların əvəzində də qrant alırlar. Əmin ola bilərsiniz ki, onların sonuncu ”Sevinc şousu” da qrant layihəsidir, pul predmetidir. Artıq hər şey tam çılpaqlığı ilə ortadadır.

# ”Jirinovski onun-bunun əlində oyuncağa çevrilən alçaq bir tipdir”



*"Rusiya Liberal Demokrat Partiyasının (LDP) lideri Vladimir Jirinovski dünyadakı ən nadir səfehlərdən və axmaqlardan biridir. Yəni bu adam mahiyyəti olmayan bir insandır. Onu sosioloji varlıqdan daha çox bioloji bir varlıq kimi qiymətləndirmək lazımdır. Bu adam onun-bunun əlində oyuncağa çevirilmiş alçaq bir tipdir". Bunları SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.*

Azərbaycanla bağlı Jirinovskinin sərsəm bəyanatlarına politoloq fikirlərini belə izah edib: ”Bu adam xüsusilə türk və müsəlman dünyasına qarşı xroniki dözülməzliyi olan şəxsdir. Bu nöqteyi-nəzərdən onun axırıncı dəfə Azərbaycan və siyasi rəhbərliyi haqqında dediklərini, nəinki siyasi etika və ədəb qaydalarına, ümumiyyətlə, bəşər dəyərlərinə sayğısı olmayan bir sərsəmin sayıqlamaları kimi qəbul etmək olar”.

Q.Hüseynov deyib ki, Jirinovskinin fikirləri və təmsil etdiyi partiya tərs mütənasibdir. Bu yaramaz insan artıq neçənci dəfədir ki, Azərbaycan və onun xalqı haqqında təhqiramiz fikirlər söyləyir. Özü də mənsub olduğu partiyanın adı Liberal Demokratiya adlanır. Bunun isə nə liberal, nə də demokratik dəyərlərlə əlaqəsi yoxdur. Bu, başdan ayağa provakatorluqla məşğul olmaq, insanları bir-birinə qarşı vuruşdurmaq üçün yaradılmış bir məxluqdur. Bu işlərlə pul qazanır. Onun-bunun əleyhinə danışa-danışa deputat mandatı qazanır, pul qazanır. İştirak etdiyi partiyanın dəyərlərinə də hörməti yoxdur. Liberal dəyərlər dünyada ən inkişaf etmiş dəyərlərdəndir. Amma onun bu dəyərlərə qətiyyən sədaqəti yoxdur. Heç onun partiyasında bu dəyərlərin daşıyıcısı olan insanlar da yoxdur”.

*Turqay Musayev*

# Dağılmış arabanın beşinci təkəri... Armen Sarkisyan

...Bəli, bunu çox doğru deyirsiniz. Vətəninin qayğısına qalan, onlara həvalə edilmiş ölkə və insanların taleyi qarşısında məsuliyyət hiss edən liderlər ancaq sivil dövlətlərdə olur. Ermənistanın çoxdan özünü normal dövlət hesab edə bilməməsini də deməkdə haqlısınız. Robert Koçaryan, Serjik Sarkisyanın hakimiyyətdə olduqları dövrdə ölkəni çapıb-taladığını deyib, tutarlı faktlar da gətirirsiniz. Onların Ermənistanı şəxsi zənginləşmə mənbəyi kimi gördüklərini deməkdə də, çox haqlısınız.



Amma indi valı dəyişməniz bir az müəmmalı görünür. Belə ki, o boyda baş naziriniz Nikol Paşinyanı populist, Böyük Britaniyada biznesini ”qoyub gəlib” Ermənistanda sizlərə prezidentlik etməyə gələn Armen Sarkisyanı isə zəif iradəli və amorfun biri olduğunu deyirsiniz.

İndi biz bunu necə başa düşək? Yaxşı, Nikolla bağlı dediyinizi haradasa anlamaq olar. Amma Armen Sarkisyanla bağlı dedikləriniz elə də inandırıcı görünmür axı.

Niyə? Ona görə ki, yaşlı bir adam sizə görə o boyda biznesini İngiltərənin mərkəzində qoyub, təkcə əl ağacını götürüb sizlərə prezidentlik etməyə gəlir... siz isə, nankorluq edib, onu zəif iradəlikdə ”ittiham edirsiniz”. Əslində, siz Armeninin bu humanist hərəkətini, yəni sizlərə önəm verərək ayağını çəkə-çəkə durub İrəvana gəlməyini təbliğ eləməkdənsə, amma siz onu ayaqlar altına atıb, ayaqlayırsınız. Hələ sizin aranızda bəziləri, utanmadan Armen Sarkisyanın da Ermənistana... kabab iyinə gəldiyini də iddia edir. Belə olmaz.

Bilirsiniz, bu gün sizinki nəyə bənzəyir... məsəl var ey... ”qabağa gedirsən bic qardaş, dala qalırsan gic qardaş” məsəlinə.

Sizin dediyinizdən belə başa düşülür ki, hər xırda məsələyə görə, ölkə prezidenti durub Ermənistan sərhədinə getməlidir? Bəs onda onun ətrafında fırlananlar nə iş görməlidir? Niyə uzağa gedək, o gün İranın İrəvandakı səfiri Abbas Bədəhşan Zohuri və hərbi attaşe polkovnik Bəhmən Sadegin özləri Ermənistan-Azərbaycan sərhəddində olublar. Təbii ki, bu da onların təkcə Nikolun yox, həm də Armen Sarkisyanın simasında ermənilərə verdiyi dəyər kimi başa düşülməlidir.

Bundan əlavə, ermənilərin insan hüquqları müdafiəçisi var ey... Arman Tatoyan. Gününün yarıdan çoxunu sərhəddə keçirir. İmkan düşən kimi də, məsələ ilə bağlı erməni prezidentini məlumatlandırır. İndi, mən başa düşmürəm hər gün Ermənistan-Azərbaycan sərhədindəki vəziyyətlə maraqlanan birinin durub sərhədə gəlməsi, sizlər üçün bu qədər önəmlidir yəni? Bundan əlavə, Ermənistan prezidenti hansı üzlə gəlib Azərbaycanla ”torpaq bölgüsü” aparmalıdır? Axı, təkcə onun yox, eləcə də onun təmsil etdiyi ölkənin buna heç bir əsası yoxdur.

Ona görə də, sizləri xəbərdar edirəm, Armen Sarkisyan barədə ”etdiyiniz haqsızlıqlar” yaxınlarda onu depressiyaya sala bilər. O da küsüb Dumanlı Albionda qayğısız həyatına qayıdar. Ona görə də ayıbdır. Bu gün Ermənistanın sökülüb dağılmış arabaya bənzətməyinizi başa düşmək olar, amma yaşlı bir adamı-prezident Armen Sarkisyanı dağılmış arabanın beşinci təkəri kimi təqdim etmək nə deməkdir?

*Ağasəf Babayev*



İLHAM

# Sənin şikayət etdiyin o həyatı yaşamaq arzusunda olanlar var

Yaşadığımız dünyanın sirli-sehirli sahələrinin kəşfinə elmin, təhsinin, bilik və bacarığın sayəsində nail olunur. Bu baxımdan, dünya elminin fədakar insanlarına minnətdarıq. Məhz kainatda inkişaf, tərəqqi o insanların zəhməti hesabına əldə edilir. Fakt budur ki, heç də hər kəs müdrik insan ola bilmir. Bunu üçün bəşəriyyətin yaradıcısı Allahın o insana lütfü olmalıdır. Səbəbsiz yerə deyilmir ki, filankəs seçilmişlərdəndir. Seçilmişlər sırasında insanlığa xeyir verən müdrik insanlar da yer alırlar. Müdrikliyə çalışanlar ilk öncə, yaxşı bir insan olmağın yollarını arayır və buna nail olduqdan sonra bəşəriyyətə xeyir verməyə, insanlığı ucaltmağa çalışırlar. Müdrikliyə yönəlmiş adam hər düşüncə və hərəkətə yaxşı tərəfindən baxar. O, kainatdakı mükəmməlliyin fərqinə varır və bu şüurla kainatı daha da yaxşılaşdırmaq üçün gecə-gündüz çalışmaqdan yorulmur. Bizlər isə bir növ hazıra nazir oluruq, o müdrik insanların sağlamlıqlarını itirmək hesabına əldə etdikləri elmi-texniki tərəqqidən rahat şəkildə bəhrələnirik. Heç o müdrik insana ”sağ ol” da demirik. Əksər hallarda dodağımızın altında ”gör köpək oğlu, nə sadə, gözəl texnika kəşf edib” deməklə yamanlayır, sonra da ”yəqin ki, bu kəşfinə görə, milyonlarla dollar pul əldə edib” deyə əlavəmizi edirik.

Fikir verin, bu gün internetin köməyi ilə dünyada baş verən istənilən hadisələrdən xəbər tuta, fikir və məlumatlarımızı çatdıra bilirik. Mobil telefonlar, sosial şəbəkələr, təkmil tibb elmi və digər inkişaf sistemi insanların əl əməyinin sadələşməsinə, biliyinin, dünya görüşünün artmasına, sağlamlığının ən yüksək formada təmin olunmasına təkan verən amillərdəndir. Bir şəhərdən başqa bir şəhərə getmək üçün günlər, bəzən aylar vaxt sərf olunurdusa, indi təyyarə ilə bir-iki saata mənzil başına çatmaq mümkündür. Deyilənə və yazılanlara görə, elə pullu-paralı imkan sahibləri var ki, səhər naharını Bakıda, günorta yeməyini İstanbulda, axşam eyləncəsini isə Parisdə Eyfel qülləsi önündə keçirir. Bəzi şou əhlinin üzdə olan mütrübləri də var ki, pandemiya deyilən bəlanın tüğyan etməsinə baxmayaraq istirahətlərindən qalmırlar. Məşhur Azərbaycan kinofilmində deyilən, ”Fransız xalqı kef edir” sözləri, yaxşı olardı ki, redaktə olunaraq, ”Şou əhlinin bərk gedən mütrübləri kef edir” deyilsin. Bəli, mütrüblər Maldiv adalarında, Bodrum sahillərində kef edirlər. Şəxsi biznesi, villası, bahalı xarici avtomobili olan mütrüblərin də sayı az deyil. Amma bir diqqətçəkən məsələ var ki, hansını danışdırsan, dəsmal çıxarıb, göz yaşı tökəcək. Deyəcəklər ki, Maldiv adalarının sahillərinə gəlib çıxana qədər əzablı yollar keçiblər. Biri deyəcək ki, əri onu dörd divar arasında saxlayıb, çörək yeməkdən, su içməkdən məhrum edib. Başqa birisi haray salacaq ki, müğənni olmaq üçün gündüzlər istirahət nə olduğunu bilməyib, gecələr də yuxusuz qalıb. Digəri də iddia edəcək ki, yaxın rəfiqəsi sevgilisini əlindən almaqla ona xəyanət edib. Bu mütrüblərin özləri kimi sənətləri də bir şey deyil. Sadəcə, qırmızı sifət, balaca boy, keçəl, bığsız ”mujik”lərin hesabına TV-lərdə meydan sulayırlar. Qədim Hind məsəli var, ”Yaxşı geyinmiş axmaq məclisdə ağzını açana qədər parlayacaq”. Mütrüblərin də əllərindən fonoqrama ilə oxumağı alsan, rüsvay olub, əski mövqelərinə qayıdarlar. Yəni zibillərini ört-basır edən, fonoqramdır.

Ümumiyyətlə, nə işdirsə, bu gün kasıbı da, varlısa da həyatından, yaşayışından narazılıq edir. Kasıbı haradasa başa düşmək olar. Evi, işi yox, cəmiyyət də insanlarla ünsiyyət də qura bilmir. Bu baxımdan oturub üzləşdiyi həyat sınağına giley-güzar edir. Bəs evi, villası, maşını, böyük biznesi, yekəyekə obyekti, çamadan-çamadan pulu-parası olan təbəqə niyə narazılıq edir? Kolxoz bazarı boyda kabineti və yuxarı başda başdaşından da böyük kreslosu olan vəzifə mənsubları da yaşayışlarından narazılıqlar edirlər, niyə? Bir də görürsən ki, vəzifə mənsubu və ya varlı birisi öz-özünə deyinir. Bu məxluq əl-qol işarəsi ilə kimisə asır-kəsir, hədələyir, hərdən də gülür. Cəsarətə gəlib sual etsən ki, ”nə olub”. Ciddi görkəm alıb deyəcək ki, ”heç nə”. Sən də dərinə getməyəcəksən, yəni onu sual yağışına tutmayacaqsan. Çünki acığına gələ və bütün hirsini-hikkəsini sənin üstünə tökə bilər. Ancaq sən ehtimal edəcəksən ki, ilk baxışdan xoşbəxt görünən bu məxluq, əslində, son dərəcə bədbəxt adamdır. Ona görə də, kasıbı, varlısı, hər bir bəşər övladı yaşayışına şükür edənlərdən olmalıdır. Ən azı nəzərə almaq lazımdır ki, səndən də, ağır, çətin və ya ailədaxili problemlər içində əzilənlər var. Digər tərəfdən unutma ki, sənin şikayət etdiyin o həyatını yaşamaq arzusunda olanlar var. Pulumuzu, sakit iş yerimizi, dəyərli dostlarımızı itirə bilərik. Yetər ki, insanlıqdan məhrum olmayaq. Rusiya yazıçısı Maksim Qorki nə gözəl deyib: ”Yer üzündə ən yüksək vəzifə insan olmaqdır”.

*Aleksey Juravlyov: "Paşinyan Rusiyanın rolundan razı deyil, Qərbin dəstəyini almağa çalışır. Böyük erməni diasporu olan Fransa bu "erməni müdafiəçisi" roluna çox uyğundur"*

# "Paşinyan "dırmıqla rəqs"ini davam etdirsə, yeni qarşıdurmaya səbəb olacaq"



Azərbaycanla Ermənistan arasında münaqişənin gərginləşməsinin günahı Ermənistanın üzərindədir. Paşinyan sərhəddə baş verən toqquşmaları Qarabağın Ermənistan üçün əbədi olaraq itirmədiyini sübut etmək üçün istifadə edir. O qədər axmaqdır ki, "dırmıq rəqslərini" davam etdirir, bu halda isə hər şey növbəti qarşıdurma ilə nəticələnəcək. SİA xəbər verir ki, bu fikirləri Rusiya Dövlət Dumasının deputatı Aleksey Juravlyov "Moskva-Baku" portalına müsahibəsində deyib. Müsahibəni təqdim edirik.

**- Ermənistan-Azərbaycan sərhədində yenidən atəşlər eşidilir. Təşəbbüskar kimdir və niyə?**

- Hesab edirəm ki, münaqişənin gərginləşməsinin günahı Ermənistanın üzərindədir. Nikol Paşinyan seçkilərdə qalib gəldi və hesab edir ki, Ermənistan cəmiyyətinə Qarabağın Ermənistan üçün əbədi olaraq itirmədiyini sübut etməyin ən asan yolu sərhəddə kiçik atışmalar təşkil etməkdir. Beləliklə, ucuz populizm və şovinizmdən istifadə edir, bir milləti digərinə qarşı qoyaraq insanların hisslərini öz məqsədləri üçün istifadə edir. Paşinyanın nümayişkaranə və isterik revanşizmi, vətəndaşlarının gözünə toz atmaq cəhdidir. Və adi insanların bunun nəticəsini öz canları ilə ödəməsi onu heç narahat etmir.

Paşinyan düşünür ki, bununla Ermənistan cəmiyyətinə tamamilə uduzulmuş 2-ci Qarabağ müharibəsinin, sadəcə, taktiki bir addım olduğunu sübut edə bilər. Paşinyan öz siyasi sirkində müharibə və sülhlə məşğul olur, günahsız qurbanların sümükləri üzərində hoqqabazlıq edir. Ancaq bundan heç nə alınmayacaq! Çünki erməni elitalarını Paşinyanın açdığı siyasi çəkişmələr yayındırır və azərbaycanlılar öz torpaqlarından, sadəcə, imtina etməyəcəklər!

**- Rusiya münaqişənin kəskinləşməsinə necə reaksiya verəcək?**

- Rusiya artıq müdaxilə etdi, xüsusən də bu səbəbdən İkinci Qarabağ müharibəsi bitdi və üçüncü olmayacaq! Ermənistan bu gün çox zəifdir, Paşinyanın səyləri belə ağır nəticələrə gətirib çıxarmayacaq və azərbaycanlılar həm əldə silah, həm də diplomatik səviyyədə vətənlərini qorumağa hazırdırlar. Ancaq Rusiya hər zaman sülhməramlı rolunu oynamağa və tərəfləri növbəti qarşıdurmadan ayırmağa hazırdır.

**- Azərbaycan Ermənistana sülh müqaviləsi bağlamağı təklif etdi, Ermənistan niyə razılaşmır?**

- Ermənistan və Azərbaycan, eləcə də üçüncü qarant ölkələrin liderləri tərəfindən imzalanan beynəlxalq sənəd, hətta onilliklər ərzində yanan münaqişənin son közünü söndürməsə belə, onun daha da genişlənməsinə ciddi maneə olacaq. Paşinyanın timsalında Ermənistan hakimiyyəti üçün bu, sərfəli deyil! Münaqişəni mümkün qədər uzatmaq və təzələmək, qaynar dəmiri başqasının əli ilə götürmək onun üçün faydalıdır.

**- Ermənistanın sərhəddə gərginlik yaratmaqla başqa ölkələri münaqişənin həllinə cəlb etmək üçün bir bəhanə tapmağa çalışdığını söyləmək mümkündürmü?**

- Üçüncü qarant ölkələr yalnız Paşinyanın vəziyyətini pisləşdirəcək. Əlbəttə ki, Ermənistanla Azərbaycan arasındakı sülh müqaviləsi Rusiya üçün də vacib bir sənəddir. Bu məsələdə diplomatik blokumuzun səyləri olmadan heç kim nə isə edə bilməz. Təbii ki, Paşinyan Rusiyanın əhəmiyyətli rolundan razı deyil, Qərb dövlətlərinin dəstəyini almağa çalışır. Böyük erməni diasporası olan Fransa bu "erməni müdafiəçisi" roluna çox uyğundur. Ancaq Fransa öz maraqlarına ciddi şəkildə lobbiçilik etməyi xəyal belə edə bilməz!

**- Fransa bu münaqişəyə niyə qarışmalıdır, onun marağı nədir?**

- Paris özü üçün geosiyasi xal qazanmağa çalışır. Sülhməramlı - qürurlu səslənir. Ancaq bir daha vurğulamaq istərdim ki, Avropada ən böyük erməni diasporlarından biri Fransadadır. Beləliklə, Parisin prosesdə iştirakının kimin xeyrinə olacağını güman edə bilərik. Amma Fransadakı erməni lobbisini, əslində, Paşinyanın şovinizmi və militarizmi tələsinə düşmüş erməni xalqı çox da maraqlandırmır. Fransız erməniləri daha çox iş mənafeləri ilə maraqlanırlar. Bundan əlavə, Fransa təbii olaraq Azərbaycanı dəstəkləyən Türkiyə ilə Avropa məkanında rəqabət aparmağa çalışır. Ümumiyyətlə, Emmanuel Makron üçün belə bir "sülhməramlı missiya", keçmiş Fransız müstəmləkəçilik əzəmətini xatırladan xoş bir macəra sayıla bilər.

**- Sərhəddəki gərginlik böyüyə bilərmi?**

- Paşinyan o qədər axmaqdır ki, "dırmıqla rəqs"ini davam etdirir, bu halda isə hər şey yeni bir düşmənçiliyə, qarşıdurmaya çevriləcək. Və bir zamanlar olduğunun əksinə olaraq militarist mühafizəkarlığı tükənmiş Paşinyan rejimi sadəcə çökəcək. Ümumiyyətlə, rəsmi İrəvan sərhəddə hərbi təxribatlarını dayandırmasa, bu qədər uzaqgörən olmayan və şərəfsiz siyasi oyuna görə çox ağır əvəz ödəməli olacaq.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# Erməni qızı Qayanenin Artyom niskili...

## *Avropaya inteqrasiya olunacaq "erməni demokratiyası"*

"İdeoloji və əqli cəhətdən bizə yad olan "Putin" ittifaqlarında-Avrasiya İqtisadi Birliyində və ya KTMT-də olmağımızın nə mənası var? Onsuz da Qərb ölkələri "qucaq açıb" bizi yanlarına çağırırlar, bizə olan köməkliklərini hər gün artırırlar...".

...Təbii ki, ermənilər dünyanın "ən qədim, ən sivil" millətlərindən biridir. Bunu, artıq ruslar da anlayıb deyə, ermənilərlə "daha ehtiyatla, daha nəvazişlə" davranmağa başlayıblar. Yadınızda olar, rus sülhməramlısı Artyomun Qarabağda 25 yaşlı erməni qızı Qayane Arzumanyanı boylu edib aradan çıxması... Belə baxanda, bu da rusların ermənilərə göstərdikləri nəvazişin, qayğının bir formasıdır. Əslində, ermənilər kimi "sivil bir xalq" üçün baş verənlər adi bir haldır. Ermənilər istəsəydilər Qayaneni hər vəchlə müdafiə də edə bilərdilər. Amma bu, erməni kimi "sivil bir millətə" yaraşan hal deyil. Çünki erməni qızları bakirəliklərini itirmələrini adi, deyək ki, sadəcə olaraq üstlərinə qonmuş tozu silmələri kimi qəbul edirlər. Elə bilməyin ki, bu mənim fikirlərimdir, yox, bu fikirləri F. Engels "...Korinfdə və hətta Hindistan məbədlərində qulluq edən ilk rəqqasə və fahişələr erməni kənizləri" olub deyərkən əlavə edib. Bunda da işimiz yox, amma...



...Ermənilərin "məxməri inqilab" sayəsində əldə etdikləri "demokratiya"nın dünyada misli olmadığını və hətta belə bir "demokratiya"nın heç bir dövlətdə olmadığını deyib "qürrələnmələri" adamda bu millətin yazıqlığına qarşı adını belə bilmədiyim qəribə hisslər oyadır.

Sən demə, ermənilər bu günə qədər nəinki azərbaycanlılarla, həm də rus və ukraynalılarla yanyana yaşamağın mümkün olmadığını anlamayırmışlar. Yəni bu günlərdə anlamağa başlayıblar.

Ona görə də, ciddi fəaliyyətə keçiblər. Əslində, onların bu fəaliyyətlərində ən önəmli yerlərdən biri yenə də erməni qızlarının Avropadakı imkanlı kişi və onların övladlarına sırımaqdır. Təbii ki, burada həmin kişinin yaşadığı dövlətin səlahiyyətli olması da böyük önəm kəsb edir.

Erməni başbilənlərinə görə, artıq nə Rusiyadan, nə Belarusiyadan, nə də ittifaqda olduqları digər ölkələrdən onlara kar aşmayacaq. Ona görə də, vaxt itirmədən həm Avrasiya İqtisadi Birliyindən, həm də KTMT-dən imtina edərək Avropaya üz tutmalıyıq. Çünki erməniləri orada istəyənlər çoxdur deyə "həsrətlə" gözləyirlər...

...Erməni düşüncəsinə görə, bundan əlavə, "erməni demokratiyası" təkcə Ermənistanda qalmamalıdır, bu "demokratiya" həm də dünyaya inteqrasiya olunmalıdır. Bununla yanaşı, avropalılar ermənilərin onlardan alacaqları 2.6 milyard avro müqabilində bu millətin necə də "səxavətli, humanist" bir millət olduğunu görməlidirlər.

...Əslində, daxilən xəstə, yer üzünün zilləti kimi tanınan bir millətdən başqa bir şey gözləməyə belə dəyməz.

***Ağasəf Babayev***

# "İran olmasaydı, Ermənistan daha da ağır vəziyyətə düşə bilərdi"



"Son vaxtlar Ermənistanda istər iqtidar, istərsə də müxalifətdə yer alan siyasətçilər açıq şəkildə dilə gətirməyə başlayıblar ki, Rusiyaya olan ümidləri puça çıxıb. Ona görə də təcili şəkildə İran, Fransa və Çinlə münasibətləri inkişaf etdirmək lazımdır. İran və Ermənistan arasında müttəfiqliyi maksimum həddə çatdırmaq lazımdır". Bunu SİA-ya açıqlamasında Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov bildirib.

Onun sözlərinə görə, Ermənistan çox yaxşı bilir ki, Türkiyə və Azərbaycan arasında manevr imkanlarında Gürcüstan ona kömək edə bilməyəcək və yeganə onun ümid etdiyi İrandır: "Həqiqəti desək qeyd edə bilərik ki, İran da Ermənistana kifayət qədər ciddi şəkildə imkanlar yaradır. 30 il ərzində əgər İran olmasaydı, Ermənistan bundan da ağır vəziyyətə düşə bilərdi. Elə bu günlərdə İranın müxtəlif siyasətçilərinin sərhədlərin toxunulmazlığı, İranın Ermənistandakı səfirinin durbinlə Azərbaycan hərbçilərinə erməni generalları ilə birlikdə baxması onu deməyə əsas verir ki, Tehran və İrəvan müttəfiqliyi bundan sonra da davam edəcəkdir. Lakin hər kəs bilsin ki, bu müttəfiqliyin nəticəsi necə 44 günlük müharibədə sıfıra bərabər oldusa, bundan sonra da belə olacaqdı. Həm Ermənistan, həm də İran Azərbaycanla münasibətlərdə vacib nüansları nəzərə alsalar yaxşı olar. Bu vacib nüans Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərini tanımaqdı. Azərbaycan sərhədlərinin tanınması həm də o deməkdir ki, Qarabağla bağlı sərsəm xəyallara son qoyulur. Bunu Ermənistan bilməlidir, İran isə öz növbəsində sərhədlər məsələsində və Qarabağla bağlı çıxışında nəzərə almalıdır ki, 30 il ərzində bir dəfə də olsun Azərbaycanın sərhədlərinin pozulması məsələsində Ermənistana təsir etmədi, bununla bağlı sərhədlərin dəyişdirilməsinin yol verilməzliyi ilə bağlı Ermənistana istiqamətlənən bəyanat vermədi. Eyni zamanda, İranın Azərbaycandakı səfiri, ya da digər bir şəxs Azərbaycan-Ermənistan sərhədinə gedərək durbinlə erməni hərbçilərinə baxmadılar".

***Gülyana***

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

6 avqust

# Münasibətlərə zərər verən amillər hansılardır?



**T*əbii ki, qurduğumuz münasibətlər problemsiz ötüşmür. Hər bir münasibətlərdə çəkişmələr, küskünlüklər və hətta qısa sürən ayrılıqlar olur. Son zamanlar aparılan araşdırmalar göstərir ki, xüsusilə uzun müddətli münasibətlər və evlilik mərhələsinə çatan münasibətlərdə daha çox problemlər yaşanır.***

Bəs görəsən insanlar arasında yaranan sevgi münasibətlərinə hansı faktorlar mane olur?

**Eqoizm**

Adətən münasibətlər qarşılıqlı güvən və paylaşma üzərində qurulmalıdır . Bir münasibət içində daim özünü fikirləşən, öz faydası üçün çalışan, öz xoşbəxtliyini düşünən bir həyat yoldaşı olduğu zaman bu münasibət daha tez bitmiş olur.

**Güvən hissinin itirilməsi**

Bir münasibətdə digər bir əhəmiyyətli hiss güvəndir. İnsanlar bir-birlərinə güvənə bildikləri müddətcə birlikdə və xoşbəxt ola bilərlər.

**Qısqanclıq**

Normal səviyyədə olan qısqanclıq cütlükləri bir-birinə daha da bağlayır və münasibətə bir romantika qatır. Həddindən çox və ifrat dərəcədə qısqanclıq isə çox ciddi problemlər yaradır. Çünki bu, əslində qısqanclıq deyil, bir psixi pozğunluqdur. Qısqanclıq səbəbilə yoldaşına zərər verən insanlar çoxdur. Belə insanlar mütləq psixoloji dəstək almalıdırlar.

**Maddi sıxıntılar**

Evlilik dövründə işini itirmə, iflasa uğrama, yığılan borclar və s. bu kimi hallarında evliliyə təsiri olur. Ailənin gündəlik xərcini qarşılaya bilməmək, uşaqlı evlərdə uşaqların ehtiyaclarının qarşılanmasını təmin etməyi bacarmamaq kimi mənfi hallar evliliyi bitirməyə səbəb olur.

***Samirə Tağıyeva***

# Rihanna rəsmən milyarder oldu!




***Amerikalı müğənni Robin Rihanna Fentinin sərvəti 1,7 milyard dollara çatıb və bu göstərici onu rəsmi olaraq milyarder edib. SİA xəbər verir ki, bu barədə "Forbes" jurnalı məlumat yayıb.***

Nəşrin məlumatına görə, müğənni yaradıcısı olduğu "Fenty Beauty" brendi sayəsində təxminən 1,4 milyard dollar qazanıb. Rihanna şirkətin səhmlərinin 50 %-nə sahibdir. Müğənni "Savage x Fenty" alt paltarı markasının satışından, təxminən 270 milyon dollar əldə edir. Rihannanın qazancının qalan hissəsi isə aktyorluq və musiqi karyerasından qaynaqlanır. Qeyd edək ki, iyun ayında "Forbes" Rihannanın sərvətinin 600 milyon dollar olaraq qiymətləndirildiyi zaman dünyanın ən zəngin qadın musiqiçisi olduğunu yazmışdı.

# Keyfiyyətsiz eynəklərdən qorunmağın ən asan üsulu



***"Keyfiyyətsiz günəş eynəkləri göz bəbəklərini enliləşdirir". Bu sözləri SİA-ya açıqlamasında tibb üzrə fəlsəfə doktoru, Milli Oftalmologiya Mərkəzinin cərrah oftalmoloqu Şəhla Əsədova deyib.***

Onun sözlərinə görə, optik eynəklər heç zaman keyfiyyətsiz olmur: "Bunun əsas səbəbi kimi onu deyə biləbilərəm ki, optik eynəklər biz həkimlər tərəfindən xəstələrimizə yazılır və onların istifadəsinə tam qarantiya verilir. Lakin günəş eynəklərinə eyni sözləri şamil edə bilməyəcəm. Günəş eynəklərinin şüşələri pis olduqda, sadəcə, gözü tündləşdirir. Və günəşin bütün zərərli şüaları birbaşa gözə təsir edir. İnsanlarımız da günəş eynəklərinin keyfiyyətinə fikir verməlidir, onun görünüşündən əlavə şüşəsinə də diqqət etməlidir. İnsanlar eynək seçimi edərkən pataxrom eynəklərə üstünlük verməlidir. Pataxrom eynəklərin ən vacib xüsusiyyəti ondan ibarətdir ki, həmin eynəklər zərərli şüaları gözə qəbul etmir, amma zərərsiz şüaları gözə qəbul edir. Çünki günəşin bəzi şüalarının bizim gözümüzə xeyri var. O şüalar gözləri qidalandırır və gözlərin inkişafında böyük rol oynayır.

## Başsağlığı

Yazıçı - publisist İ. Əliyev Tural Rüstəmova

**Atası,**

qayğıkeş insan, əqidəsinə sadiq ziyalı, ictimai-siyasi xadim Arif Rüstəmovun vəfatı ilə əlaqədar kədərləndiyini bildirir, dərin hüzünlə başsağlığı verir.

**Allah rəhmət eləsin**

# Xəbərdarlıq: Bakıda 40 dərəcə isti olacaq



**Avqustun 6-da Azərbaycanda gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli olacağı gözlənilir.**

**Şimal-qərb küləyi gündüz cənub küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 24-27° isti, gündüz 34-39°, bəzi yerlərdə 40° isti, Bakıda gecə 25-27° isti, gündüz 37-39° isti olacaq.**

**Atmosfer təzyiqi 757 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 60-65 %, gündüz 25-30 % olacaq.**

**Abşeron çimərliklərində şimal-qərb küləyi gündüz cənub küləyi ilə əvəz olunacaq. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27° isti, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq.**

**Tibbi-meteoroloji proqnoza gəlincə, Abşeron yarımadasında isti hava şəraiti fonunda zəif küləklərin üstünlüyü və günün bəzi saatlarında havada yaranan durğunluq meteohəssas insanlar üçün əlverişsizdir.**

**Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26° isti, gündüz 36-41°, bəzi yerlərdə 42° isti, dağlarda gecə 15-20° isti, gündüz 25-30° isti olacaq.**

***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**